HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 16 (858) ■ 3 may 2017 www.vergiler.az Qiymәti: 60 qәp.



Biz bazar iqtisadiyyatını vergi yolu ilә tәnzimlәmәliyik.

Heydәr ƏLİYEV

## Azәrbaycanın «qara qızılı» insan kapitalına sәrmayә kimi qoyulub

**Mayın 1-dә Azәrbaycan Prezidenti İlham Əliyev Bakının Sәbail rayonunun Bibiheybәt qәsәbәsindә inşa olunmuş SOCAR-ın Bakı Ali Neft Mәktәbinin kampusunun açılışında iştirak edib.**




Kampusun açılışını bildirәn lenti kәsәn dövlәtimizin başçısına mәlumat verilib ki, Bakı Ali Neft Mәktәbinin kampusunun inşasına 2012-ci ilin aprel ayında başlanılıb. Kampusun ümumi әrazisi 7 hektardır. Bunun 47 min kvadratmetri ümumi tikinti sahәsi, 42 min kvadratmetri isә әsas korpusun sahәsidir. Kampusda әsas korpus, 400 çarpayılıq yataqxana, fitnes mәrkәzi, 1000 yerlik süni örtüklü stadion, iki qazanxana, 10 kilovoltluq elektrik yarımstansiyası, iki su hovuzu, nasosxana, dörd keçid mәntәqәsi, iki tennis kortu, voleybol, basketbol vә yüngül atletika meydançaları var. Əsas korpus isә 600 nәfәrlik akt zalı, üzgüçülük hovuzu, iki idman zalı, soyunub-geyinmә otaqları, 110 yerlik auditoriya zalı, 300 yerlik yemәkxana, tәdris auditoriyaları, inzibati vә xidmәti otaqlar, müasir tәdris laboratoriyaları, kitabxana vә üzmә hovuzu olan uşaq bağçasından ibarәtdir. Tәdris laboratoriyalarındakı cihaz vә avadanlıq Almaniyanın «Gunt» vә «Lukas nulle» şirkәtlәrinin istehsalıdır. Tәlәbәlәr onların vasitәsilә tәdris olunan fәnlәr üzrә tәdqiqat işlәrini yerinә yetirәrәk hesabatlar hazırlayırlar. Azәrbaycanda fәaliyyәt göstәrәn transmilli şirkәtlәrin bir çoxunun imkanları mütәxәssis hazırlığına cәlb edilib. Belә ki, «ABB» şirkәti kampusda inteqrasiya edilmiş idarәetmә vә tәhlükәsizlik laboratoriyasını, «Schneider Electric» şirkәti qәza hallarının idarәedilmәsi vә avtomatlaşdırılması laboratoriyasını, «AVANDSİS group» vә «Schneider Electric» şirkәtlәri birlikdә avtomatik sistemlәrin elementlәrini vә proqram tәminatını, «Emerson process management» şirkәti isә nәzarәt-ölçmә vә idarәetmә laboratoriyasını Bakı Ali Neft Mәktәbinә hәdiyyә ediblәr. Bundan başqa, neft-qaz mühәndisliyi, kimya vә proseslәrin avtomatlaşdırılması mühәndisliyi kafedralarının әrazisindә laboratoriya işlәrinin yerinә yetirilmәsi üçün müasir avadanlıqlar, qurğular yerlәşdirilib, bәrpaolunan enerji mühәndisliyi vә elmi-tәdqiqat laboratoriyaları istismara verilib.

Sonra dövlәtimizin başçısına Bakı Ali Neft Mәktәbinin tәlәbәlәri tәrәfindәn ixtira edilәn avtomatik günәş izlәmә sistemi haqqında mәlumat verilib. Bildirilib ki, bu sistem gün әrzindә günәş şüalarını izlәyir vә panellәri Günәşә yönәlmiş vәziyyәtdә saxlayır. Artıq mәktәbin әrazisindә bu sistemin istifadәsinә başlanılıb.

Tәhsil ocağının müәllim-tәlәbә heyәti ilә görüşәn Prezident İlham Əliyev bildirib ki, Bakı Ali Neft Mәktәbi artıq 6 ildir ki, çox uğurla fәaliyyәt göstәrir. Bu illәr әrzindә mәktәb Azәrbaycanın tәhsil mәkanında öz layiqli yerini tuta bilib: «Bu gün mәktәb yeni şәhәrciyә, yeni binaya köçür. Burada oxumaq, biliklәrә yiyәlәnmәk üçün bütün şәrait yaradılıb, әn müasir texnologiyalar tәtbiq olunur. Bütün binalar çox gözәl, zövqlә tikilib, burada әn müasir laboratoriyalar fәaliyyәt göstәrir vә bu gün mәnә tәqdimat da edildi. Burada tәhsilin sәviyyәsi әn yüksәk standartlara cavab verәcәk».

Dövlәtimizin başçısı qeyd edib ki, bu mәktәbin yaradılması vә artıq belә gözәl şәhәrciyә köçmәsi bir daha onu göstәrir ki, Azәrbaycanın qara qızılı insan kapitalına sәrmayә kimi qoyulub: «Son illәr әrzindә ölkәmizdә yaradılmış yeni tәhsil müәssisәlәri bu gün mәhz bunun hesabına fәaliyyәt göstәrir. İnvestisiya, maddi imkanımız olmasa idi, istәyimiz olsa belә bütün bu işlәri görmәk çәtin ola bilәrdi. Biz neftdәn әldә olunan gәlirlәrdәn çox sәmәrәli şәkildә istifadә etdik. Ölkәmizi güclәndirdik, yeni infrastruktur yaratdıq, bütün şәhәrlәrimiz abadlaşdı, Bakı dünyanın әn gözәl şәhәrlәrindәn birinә çevrildi. Bütün bölgәlәrdә quruculuq-abadlıq işlәri uğurla gedir. Bu gün Azәrbaycan iqtisadiyyatı daha çox qeyri-neft sektoru hesabına inkişaf edir. Əgәr son illәrin statistikasına nәzәr salsaq görәrik ki, bu gün Azәrbaycan iqtisadiyyatının әsas tәkanverici qüvvәsi qeyri-neft iqtisadiyyatıdır».

## Dünyada ilk neft quyusu mәhz Azәrbaycanda qazılıb

### Tarixi sәnәdlәr, arxiv materialları bunu bir daha sübut edir

**Azәrbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da SOCAR-ın Bibiheybәt mәdәninin әrazisindә dünyada sәnaye üsulu ilә qazılmış ilk quyunun bәrpadan sonrakı vәziyyәti ilә tanış olub.**

Dövlәtimizin başçısına görülәn işlәr barәdә mәlumat verilәrәk bildirilib ki, XIX әsrdә burada «Nobel qardaşları neft hasilatı şirkәti»nә mәxsus neft vә neft mәhsullarının daşınması üçün ağcaqayın ağacından hazırlanmış faner borunun bir hissәsi, hәmçinin hәmin şirkәtin sifarişinә әsasәn Bakıya gәtirilmiş quyuüstü avadanlıqlar da nümayiş olunur. Hәlә qәdim dövrlәrdәn Azәrbaycan dünyada neftin vәtәni sayılırdı. Bakının neft mәdәnlәrindә quyular bir qayda olaraq әl ilә qazılırdı. XIX әsrin әvvәllәrindәn etibarәn neft quyularının daha mütәrәqqi üsullarla qazılması istiqamәtindә araşdırmalara başlanılıb, neft hasilatını artırmaq üçün yollar axtarılıb. Tarixi mәnbәlәr vә son illәrdә Rusiyanın Mәrkәzi Dövlәt Tarix Arxivindәn tapılmış sәnәdlәr dünyada sәnaye üsulu ilә neft quyusunun qazılmasına Bibiheybәtdә başlanıldığını bir daha sübut edir. Belә sәnәdlәrdәn biri Zaqafqaziya Vilayәti Baş İdarәsinin Şura üzvü, dövlәt müşaviri Vasili Semyonovun bu vilayәtin baş komandanı general Aleksandr Neydqarta yazdığı 1844-cü il 22 dekabr tarixli mәktubdur. Mәktubda Semyonov Abşeron yarımadasındakı neft mәdәnlәrini әtraflı tәsvir edir, hasilatın artırılması üçün konkret texniki vә tәşkilati tәkliflәr verir. Semyonovun mәktubuna müsbәt rәy verildikdәn sonra 1845-ci ilin aprelindә maliyyә naziri Fyodor Vronçenkonun göstәrişi ilә Kaspi Xәzinә Palatası tәrәfindәn qazma işlәrinә min gümüş sikkә ayrılır vә Bibiheybәt rayonunda kәşfiyyat quyusunun qazılması haqqında tapşırıq verilir. 1846-cı ilin yanvarında Bakı neft vә duz mәdәnlәrinin direktoru, dağ mühәndislәri korpusunun podpolkovniki Nikolay Voskoboynikovun rәhbәrliyi ilә Bibiheybәt yatağında iki quyunun qazılmasına başlanılır. Quyulardan biri 21 metr dәrinlikdәn neft verir vә bununla da dünyada sәnaye üsulu ilә neft hasilatının әsası qoyulur. 1847-ci il 8-14 iyul tarixlәrindә Qafqaz canişini knyaz Mixail Vorontsovun imzaladığı hesabatlarda da dünyada ilk neft quyusunun Xәzәr dәnizinin sahilindә qazılması faktı tәsdiq olunur. Neftçıxarma işindә әldә olunmuş inqilabi yeniliklәr XIX әsrin 50-ci illәrindә Abşeronda hasilatın yüksәlmәsinә, emal sәnayesinin yaranmasına böyük tәkan verib. Mexaniki üsulla quyu qazılması texnikasının vә texnologiyasının inkişafı sayәsindә Bakıda bir sıra yeni neft yataqları istismara verilib, quyular qazılıb, hasilat artırılıb, neft sәnayesi infrastrukturu inkişaf etdirilib. 1899-1901-ci illәrdә 11,5 milyon ton neft hasil edәn Bakı neft sәnayesi dünyada birinci yeri tutub.1859-cu ildә sәnaye üsulu ilә neft quyularının qazılmasına başlamış Amerika Birlәşmiş Ştatlarında isә bu göstәrici o zaman 9,1 milyon ton tәşkil edirdi.



Dövlәtimizin başçısı әrazidә quraşdırılan xüsusi interaktiv köşkә baxıb. Bildirilib ki, bu köşk vasitәsilә Azәrbaycanın neft tarixi, o cümlәdәn sәnaye üsulu ilә qazılmış ilk quyu barәdә әtraflı mәlumat almaq mümkündür. İnteraktiv köşkә, eyni zamanda, ulu öndәr Heydәr Əliyevin vә dövlәtimizin başçısı İlham Əliyevin hәyata keçirdiklәri neft strategiyası haqqında mәlumat, Azәrbaycanın neft sәnayesi ilә bağlı tarixi foto vә videolar da yerlәşdirilib.

Sonra Prezident İlham Əliyev neftçilәrlә söhbәt edib. Bildirib ki, neftin vәtәni Azәrbaycandır, neft sәnayesi mәhz buradan başlanıb: «Bu gün - artıq 200 ilә yaxın vaxt keçәndәn sonra da Azәrbaycan dünyada neft ölkәsi, qaz ölkәsi kimi öz sözünü deyir. Bu gün bizim neftimiz xalqımıza mәxsusdur. O vaxt biz çar Rusiyasının tәrkibindә idik vә buradan çıxarılan tәbii ehtiyatlar xalqımızın güzәranına o qәdәr dә tәsir etmirdi. Kasıbçılıq, sәfalәt idi. Azәrbaycan xalqı böyük bir sәrvәtin sahibi idi, ancaq özü bu sәrvәtdәn istifadә edә bilmirdi. Sovet dövründә dә Azәrbaycan neft respublikası kimi özünü göstәrmişdir. İkinci Dünya müharibәsi dövründә Azәrbaycan neftçilәrinin әmәyi olmasaydı, müharibәnin nәticәlәri tam başqa cür ola bilәrdi. Azәrbaycan neftçilәri faşizm üzәrindә Qәlәbәdә hәlledici rol oynayıblar. Biz bu il 2 milyard ton neftin hasil olunmasını qeyd edәcәyik. Tәsәvvür edin, әgәr Azәrbaycan müstәqil ölkә olsaydı, indi dünyanın әn zәngin ölkәlәrindәn biri olacaqdı. Bu gün isә bizim neftimiz xalqımıza xidmәt edir, dövlәtimizi güclәndirir».

## Azәrbaycan bütün sahәlәrdә böyük uğurlar әldә edib

Prezident İlham Əliyev, birinci xanım, Azәrbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva mayın 2-dә Beynәlxalq Gimnastika Federasiyasının prezidenti Morinari Vatanabeni vә Beynәlxalq Gimnastika Federasiyasının baş katibi Andre Qaysbuxleri qәbul ediblәr.

Qonaqları salamlayan dövlәtimizin başçısı Bakıda bәdii gimnastika üzrә dünya kuboku yarışlarının çox uğurla keçirildiyini vurğulayıb, qeyd edib ki, bundan әvvәl dә Azәrbaycanda gimnastika üzrә dünya vә Avropa çempionatları vә digәr mötәbәr tәdbirlәr yüksәk sәviyyәdә tәşkil olunub.

Beynәlxalq Gimnastika Federasiyasının prezidenti Morinari Vatanabe Bakıda bәdii gimnastika üzrә dünya kuboku yarışlarının uğurla keçirilmәsi vә ümumilikdә idmanın gimnastika növünә verilәn dәstәyә görә Prezident İlham Əliyevә vә birinci xanım, Azәrbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevaya minnәtdarlığını bildirib. O, 2020-ci ildә keçirilәcәk Tokio Olimpiya Oyunlarında Azәrbaycan gimnastlarının uğur qazanacağına ümidvar olduğunu vurğulayıb. Dövlәtimizin başçısı bu mühüm idman tәdbirinin Tokioda keçirilmәsi ilә bağlı tәbriklәrini ifadә edib. Prezident İlham Əliyev Azәrbaycanda idmanın inkişafına böyük diqqәt göstәrildiyini vә gәnc nәslin idmana olan hәvәsinin gündәn-günә artdığını diqqәtә çatdırıb, paytaxtımızda vә digәr regionlarda genişmiqyaslı quruculuq işlәrinin hәyata keçirildiyini bildirib, әn müasir idman strukturunun, o cümlәdәn gözәl gimnastika idman sarayının inşa edildiyini mәmnunluqla vurğulayıb.

Beynәlxalq Gimnastika Federasiyasının baş katibi Andre Qaysbuxler qeyd edib ki, Azәrbaycan idman sahәsindә, ümumilikdә ölkәnin inkişafında inanılmaz uğurlar qazanıb vә son illәr ölkәdә gedәn böyük inkişaf proseslәri dәrin tәәssürat yaradır.

Birinci xanım, Azәrbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva ölkәmizdә Gimnastika Federasiyasına rәhbәrlik etmәsindәn vә xüsusilә bu sahәdә әldә olunan uğurlardan qürur hissi keçirdiyini bildirib vә qeyd edib ki, ölkәdә gimnastikanın inkişafının әsası qoyulan vaxt bu idman növü o qәdәr dә populyar deyildi. İndi isә gimnastikaya böyük maraq göstәrilir, xüsusilә xeyli sayda gәnc qızlar bu idman növü ilә mәşğul olmaq vә yarışlarda iştirak etmәk arzusundadırlar. Bu, çox böyük nailiyyәtdir vә biz bununla fәxr edirik.

## Mәqsәd qeyri-neft sektoruna tәkan vermәkdir

Aprelin 28-dә Prezident İlham Əliyev Azәrbaycan Dövlәt Neft Şirkәtinin (SOCAR) Sumqayıtda inşa olunan karbamid zavodunda tikinti işlәrinin gedişi ilә tanış olub. Dövlәtimizin başçısına Sumqayıt sәnaye zonasının perspektiv inkişafı ilә әlaqәdar qaz tәchizatı sisteminin yaradılması haqqında da mәlumat verilib. Sonra Prezident İlham Əliyev ayrı-ayrı inşaat sahәlәrini gәzib, görülәn işlәrlә yaxından tanış olub. Ümumi әrazisi 40 hektara yaxın olan zavod ammonyak, karbamid istehsalı vә karbamidin qranulyasiyası sahәlәrindәn ibarәt olacaq. Azot gübrәlәrinin istehsalı üçün әsas xammal qismindә tәbii qazdan istifadә edilәcәk. Burada gündәlik 1200 ton ammonyak vә 2000 ton karbamid istehsal olunacaq. Zavodda il әrzindә tәxminәn 650-660 min ton karbamid istehsal edilәcәk ki, bu da daxili tәlәbatı tam ödәyәcәk. Bununla yanaşı, mәhsulun dәmir yolu ilә Türkiyә, habelә Qara Dәniz limanları vasitәsilә dünya bazarlarına ixracı nәzәrdә tutulur. Layihәnin icrasında tәxminәn 3200 nәfәr çalışır ki, onların da 3100-ü Azәrbaycan vәtәndaşıdır. Zavod işә düşәndәn sonra burada 350-400 nәfәrin daimi işlә tәmin edilmәsi planlaşdırılır.

Belә müәssisәlәrin yaradılması, ilk növbәdә, ölkә iqtisadiyyatını daha da möhkәmlәndirir, ölkәmizin ixrac qabiliyyәtini artırır, qeyri-neft sektorunun inkişafına tәkan verir.

BU NÖMRƏMİZDƏ

AZƏRBAYCANIN VERGİ QANUNVERİCİLİYİ BEYNƏLXALQ STANDARTLARA UYĞUNDUR 2

VERGİ SİYASƏTİ QEYRİ-NEFT İXRACINDA TƏŞVİQEDİCİ ROL OYNAMAQDADIR 3

İSTEHSALÇILARIN VERGİ YÜKÜNÜN OPTİMALLAŞDIRILMASI İXRACI STİMULLAŞDIRIR 4

ÖLKƏNİN GƏLƏCƏK İNKİŞAFI SAHİBKARLIĞIN İNKİŞAFINDAN ASILIDIR 5

# Azərbaycanın vergi qanunvericiliyi beynəlxalq standartlara uyğundur

Aprelin 26-28-də Vergilər Nazirliyində OECD nümayəndlərinin iştirakı ilə «Avtomatik məlumat mübadiləsi» mövzusunda seminar keçirilmişdir.

Tədbirin məqsədi maliyyə hesabları barədə məlumatların mübadiləsi üzrə xarici dövlətlərin qabaqcıl təcrübəsinin öyrənilməsi, bu sahədə görülən işlər və qarşıda duran məsələləri müzakirə etmək idi. Vergilər Nazirliyinin maliyyə məlumatları mübadiləsi üzrə xarici dövlətlərin səlahiyyətli orqanları ilə əməkdaşlıq barədə məlumat verən nazirliyin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin baş direktorunun müavini Rauf Namazov bildirmişdir ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli 2257 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin 18-ci bəndində ölkənin hüdüdlarından kənarda əldə olunmuş gəlirlərin vergiyə cəlb olunmasında şəffaflığı təmin etmək və səmərəli vergi nəzarəti həyata keçirmək üçün digər dövlətlərlə maliyyə məlumatlarının avtomatik mübadiləsi məqsədilə hökumətlərarası müqavilələrin bağlanması nəzərdə tutulmuşdur. Beynəlxalq səviyyədə vergidən yayınma hallarına və gəlirlərin gizlədilməsinə qarşı mübarizə və vergi məsələləri üzrə beynəlxalq əməkdaşlıq məqsədilə 15 iyul 2014-cü il tarixində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) vergitutma məqsədləri üçün müxtəlif dövlətlər tərəfindən xarici şəxslərin həmin dövlətlərdə maliyyə institutlarında olan hesabları haqqında məlumatların toplanması və həmin şəxslərin rezident olduqları dövlətlərlə avtomatik məlumat mübadiləsinin vahid prinsiplərini tənzimləyən Ümumi Hesabatlılıq Standartı (Common Reporting Standard - CRS) hazırlamış və təsdiq etmişdir.

Həmin standarta əsasən, dövlətlər «Maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında Çoxtərəfli Razılaşma»nı imzalamaqla, mübadiləni vahid formatda aparmaq barədə razılıq əldə edirlər. Qeyd olunan razılaşma vergi ili bitdikdən sonra bir dövlət tərəfindən digər üzv dövlətin fiziki və hüquqi şəxslərinin adı birinci çəkilən dövlətdəki maliyyə institutlarında olan hesabları və əməliyyatları haqqında həmin il üzrə məlumatların ümumiləşdirilərək digər dövlətə göndərilməsini nəzərdə tutur. Razılaşma 29 oktyabr 2014-cü il tarixində Almaniyanın paytaxtı Berlin şəhərində imzalanmaya açıq elan edilmiş və 4 aprel 2017-ci il tarixinə həmin sənədə 100 dövlət qoşulmuşdur. Razılaşmaya qoşulan səlahiyyətli orqanlardan bir qismi artıq 2017-ci ildə, digər qismi isə 2018-ci ildən başlayaraq məlumat mübadiləsinin CRS standartına uyğun aparılmasına hazır olduqlarını bəyan etmişlər. Mübadilənin həyata keçirilməsi üçün artıq Azərbaycan Respublikasında müvafiq infrastruktur və hüquqi baza mövcuddur.

Qlobal Forumun katibliyinin informasiya mübadiləsi üzrə aparıcı mütəxəssisi Siva Pattanamın sözlərinə görə, Azərbaycanın Vergilər Nazirliyi dünyada əsas standartlardan biri kimi qəbul olunan «Vergitutma sahəsində məlumat mübadiləsi və şəffaflıq standartı»nın tətbiqində böyük səy göstərir. Nazirlik indiyədək bu sahədə beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etmiş, vergi orqanları arasında məlumat mübadiləsinin genişləndirilməsi və beynəlxalq standartların tətbiqi istiqamətində zəruri işlər görmüşdür. 2013-cü ildə OECD-nin «Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumu»na üzv olduqdan sonra Azərbaycan məlumat mübadiləsi və şəffaflıq sahəsində beynəlxalq razılaşdırılmış standartın tətbiqi öhdəliyini qəbul etmişdir. Azərbaycanın vergi administrasiyasının bu istiqamətdə gördüyü işlərin monitorinqini aparan Qlobal Forum məlumatların mübadiləsi və vergi inzibatçılığında şəffaflıq prinsipləri üzrə nəticələri müsbət qiymətləndirmişdir. Bunun təsdiqi kimi, 2016-cı ilin sonlarında Azərbaycan şəffaflıq və məlumat mübadiləsi üzrə yüksək reytinqə layiq görülmüşdür: «Bizim apardığımız müşahidələr göstərir ki, Azərbaycanın vergi sistemi beynəlxalq tələblərə uyğun qurulmuşdur, vergi qanunvericiliyinin daim təkmilləşdirilməsi və qabaqcıl ölkələrin vergi qanunvericiliyi ilə uzlaşdırılması, vergi sistemindəki yeniliklərin tətbiq olunması istiqamətində islahatlar həyata keçirilməkdədir. Bu onu təsdiq edir ki, Qlobal Forumun üzv ölkələrindən biri kimi etibarlı partnyor hesab olunan Azərbaycan şəffaflığın təmin olunması ilə bağlı digər tədbirləri də həyata keçirməyə qadirdir».

S. Pattanam bildirmişdir ki, Azərbaycanın maliyyə məlumatları mübadiləsi üzrə üzərinə götürdüyü öhdəliklərdən biri beynəlxalq maliyyə institutlarında vergi monitorinqinin aparılması və əməletmədir. ABŞ hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında qısaca FATCA adlandırılan xarici hesablar üzrə vergi əməletməsi aktı əsasında bağlanmış sazişə əsasən, tərəflərin vergi ödəyicilərinin bank hesabları, həmin hesablara aid əməliyyatlar barədə məlumatların mübadiləsi həyata keçirilir. Azərbaycanın vergi administrasiyası bu istiqamətdə də mühüm işlər görmüş, öz qanunvericiliyini beynəlxalq sazişlərdən irəli gələn tələblərə uyğunlaşdırmışdır. Hazırda vergi qanunvericiliyində maliyyə institutlarının, bank, kredit və sığorta şirkətlərinin hüquq və vəzifələrini, bu məsələlərlə bağlı onların məsuliyyətini nəzərdə tutan maddələrin yer alması aparılan əməliyyatlar barədə avtomatlaşdırılmış məlumat mübadiləsini həyata keçirməyə imkan verir. Bununla yanaşı, vergi və bank qurumları daha fəal işləməli, vergi və maliyyə məlumatlarının mübadiləsi üzrə Azərbaycanın qoşulduğu beynəlxalq konvensiyaların tələblərinə əməl edilməsinə nəzarət tədbirləri artırılmalıdır: «Bu gün dünyada müştərilərin bank hesablarına nəzarət əsas məsələlərdən biridir, həmin vəsaitlərin hara yönəldilməsi, istifadəsi beynəlxalq səviyyədə izlənilən prioritetlərdəndir. Ona görə də vergi administrasiyası vergi nəzarəti zamanı bank əməliyyatları aparan şəxslərin hesabları, digər zəruri məlumatlar barədə elektron hesabatların təqdim edilməsini ciddi şəkildə nəzarətdə saxlamalıdır. İnanıram ki, Azərbaycan 2017-ci və 2018-ci illərdə maliyyə mübadiləsi və şəffaflıq sahəsində nəzərdə tutulmuş işləri daha da genişləndirəcək. Çünki bu istiqamətdə aparılan islahatlar şəffaflıq və məlumat mübadiləsi üzrə beynəlxalq reytinqin yüksəldilməsi üçün də mühüm əhəmiyyət kəsb edir».

**Elbrus CƏFƏRLİ**

# Strateji yol xəritələrinə həsr olunmuş «dəyirmi masa»



Sumqayıt Dövlət Universitetinin Heydər Əliyev Mərkəzində «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri» mövzusuna həsr edilmiş «dəyirmi masa» keçirilmişdir. Tədbirdə Milli Məclisin, Dövlət Neft Şirkətinin, Azərbaycan Milli Elmlər Akademiyasının, müvafiq dövlət qurumlarının rəsmiləri, təhsil müəssisələrinin alim-pedaqoq heyəti, KİV və ictimai təşkilatların nümayəndələri iştirak etmişlər.

Universitetin rektoru, professor Elxan Hüseynov qonaqları salamlayaraq diqqəti «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri»nin əhəmiyyətinə cəlb etmiş, tədbirin məqsədi barədə məlumat vermişdir.

Tədbir Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadənin sədrliyi ilə davam etdirilmişdir. Z.Səmədzadə «Milli iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin dövlətin iqtisadi siyasətinə təsiri məsələləri» mövzusunda çıxış edərək bildirmişdir ki, strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə ehtiva edir.

> **Strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə ehtiva edir**

Tədbirdə Vergilər Nazirliyinin nümayəndələri, vergilər nazirinin müşaviri - Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov, 2 saylı Ərazi Vergilər Departamentinin baş direktoru Abbas İsmayılov da iştirak etmişlər. «Vergi siyasəti və davamlı inkişaf» mövzusunda çıxış edən Ə.Məmmədov strateji yol xəritələri üzrə vergi hədəfləri və strateji yol xəritələrinin icrasında verginin tənzimləyici rolu, vergi sahəsində aparılan islahatların əsas istiqamətləri, vergi sisteminin inkişaf strategiyasının əsas missiyası, könüllü vergi əməletmələrində mövcud problemlər, vergi orqanlarında insan resurslarının inkişaf etdirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlər, sahibkarların ictimai təşkilatları və ali təhsil müəssisələri ilə səmərəli əməkdaşlıq əlaqələri haqqında məsələləri tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.




# Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2017-ci ilin birinci rübündə dövlət büdcəsinin mədaxili **3591,5 milyon** manat, xərcləri isə **3912,7 milyon** manat təşkil edib.
- Ötən il Azərbaycanda tikinti sektoruna dövlət tərəfindən **11,4 milyard** manat vəsait ayrılıb.
- «Elektron hökumət» portalında elektron arayışların sayı **17**-yə, ümumi electron xidmətlərin sayı isə **447**-yə çatıb.
- Ölkədə on bir bankın qorunan əmanətçilərinə **732 milyon 438 min** manatdan artıq kompensasiya ödənilib.
- Mayın 4-də Bakı Fond Birjasında «Azərbaycan İpoteka Fondu» ASC-nin **10 milyon** manat həcmində adlı, sənədsiz, faizli ipoteka istiqrazlarının yerləşdirilməsi üzrə hərrac keçiriləcək.

# Vergi siyasəti qeyri-neft ixracında təşviqedici rol oynamaqdadır



Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə ötən həftə Yevlax rayonunda keçirilən qeyri-neft ixracatçılarının birinci respublika müşavirəsində ixracın artırılması üçün dövlət orqanları və sahibkarların qarşısında duran vəzifələr, həlli vacib olan məsələlər geniş müzakirə edildi. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynovla söhbətimizin əsas mövzusu bu sahədəki vəziyyət, ixracın təşviqi ilə bağlı aparılan tədbirlər, həyata keçirilən vergi siyasətinin iqtisadiyyata təsiri kimi aktual məsələlərə həsr olunub.

***- Aydın müəllim, iqtisadiyyatın neftdən asılılığını azaltmaq üçün aparılan islahatları necə qiymətləndirərdiniz?***

- Hazırda dünya iqtisadiyyatında baş verən mürəkkəb proseslər davam etməkdədir, bu baxımdan, sözsüz ki, qlobal amillərin dünyanın bir parçası olan Azərbaycana təsirlərini inkar etmək olmaz. Regional və qlobal səviyyədə gedən mürəkkəb siyasi və iqtisadi proseslərin ölkəmizin iqtisadiyyatına mənfi təsirləri bəzi sahələrdə nəzərə çarpıb. Ancaq ölkədə yeni islahatlar kursunun müəyyən edilməsi və tətbiq olunması ötən ilin sonlarından iqtisadi inkişafa öz faydasını verməkdədir. Hazırda neftin ucuzlaşmasının iqtisadiyyatımıza təsiri zəif hiss olunur. Ölkəmizdə yaradılmış böyük iqtisadi potensial, aparılan ciddi islahatlar, o cümlədən iqtisadiyyatın diversifikasiyası, biznes mühitinin yaxşılaşdırılması, investisiyaların, eləcə də ixracın təşviqi, idarəetmənin təkmilləşdirilməsi və digər tədbirlər sayəsində xarici amillərin ölkə iqtisadiyyatına mənfi təsirləri minimuma endirilib. Bu baxımdan, 2017-ci ilin ötən 3 ayının iqtisadi göstəriciləri makroiqtisadi sabitliyin möhkəmliyini, qeyri-neft sektorunun inkişafının sürətləndiyini təsdiqləyir. Ölkə iqtisadiyyatında qeyri-neft sektoru 2,4 faiz, qeyri-neft sənayesi 2 faiz artıb, kənd təsərrüfatında isə 3,5 faiz artım olub.

Daha dayanıqlı inkişafa nail olmaq üçün «Strateji Yol Xəritəsi» təsdiqlənib, struktur, institusional, pul-kredit, maliyyə və digər istiqamətlərdə dərin islahatlar aparılır, vergi və gömrük sahəsində idarəetmə təkmilləşdirilir. İxracın genişləndirilməsi, rəqabətqabiliyyətli məhsulların ənənəvi və yeni bazarlara çıxışının artırılması bu siyasətin əsas tərkib hissəsidir. Aparılan institusional islahatlar çərçivəsində biznes mühitinin təkmilləşdirilməsi, istehsal və ixrac fəaliyyəti üçün güzəştlərin tətbiq olunması, səmərəli vergi-gömrük fiskal və tarif siyasətinin həyata keçirilməsi Azərbaycanda qeyri-neft sektorunda çalışan sahibkarların fəaliyyətinə geniş meydan verir. Ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı, məhsul ixracının artırılması, rayonlarda sənaye zonalarının və aqroparkların yaradılması, həmçinin digər tədbirlər Azərbaycanın ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, idxaldan asılılığın azaldılması, ixracyönümlü istehsal sahələrinin yaradılması baxımından çox faydalıdır.

***- İxracın stimullaşdırılması qanunvericilik müstəvisində necə əks olunur?***

- Milli Məclis ötən il qeyri-neft məhsullarının ixracının stimullaşdırılması, ixracın təşviqi ilə bağlı əlavə tədbirlərin görülməsi, inzibati prosedurların sadələşdirilməsi və şəffaflığın artırılması, kənd təsərrüfatı və emalı məhsullarının ixracının dəstəklənməsi, xarici bazarların araşdırılması və marketinq fəaliyyəti, ixrac yönümlü istehsala verilən kreditlərə əlavə güzəştlərin tətbiqi ilə bağlı bir sıra qanunlar qəbul edib, qanunvericilik sənədlərinə dəyişikliklər olunub. Bu dəyişikliklərin qüvvəyə minməsi nəticəsində ixrac mallarının daşınmasına tətbiq olunan tariflər optimallaşdırılıb, ixrac üçün tələb edilən sənədlərin sayı azaldılıb. Qeyri-neft məhsulları üzrə malların mənşə ölkəsinin müəyyən edilməsi üçün ekspertiza xidmətləri tarifləri orta hesabla 30 faiz, mənşə sertifikatının verilmə müddəti üç gündən bir günə endirilib, daşıyıcılar ilə dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi və koordinasiyası gücləndirilib, bu sahədə şəffaflığın təmin olunması üçün təsirli addımlar atılıb.

Qəbul olunmuş qanunlara əsasən, sahibkarlar üçün «İxrac təşviqinin ödənilməsi qaydası», «İxrac təşviqi şamil olunacaq məhsulların siyahısı» və «İxrac təşviqi üzrə tətbiq olunacaq əmsallar» təsdiq edilib. 2016-cı ilin aprel ayından sahibkarlara ixracın təşviqi ilə bağlı maliyyə dəstəyi göstərilir, indiyədək sahibkarlara investisiya dəyəri 1 milyard manatdan artıq olan 100-ə yaxın investisiya təşviqi sənədi verilib. Hazırda sahibkarlara büdcə vəsaitləri hesabına ixrac etdikləri qeyri-neft məhsullarının gömrük dəyərinin 3 faizindən 6 faizinədək təşviq verilir. Bu faktorlar qeyri-neft sektorunu təmsil edən sahibkarların ixrac potensialını gücləndirir. Bunun real nəticəsi var: 2017-ci ilin ilk üç ayı ərzində Azərbaycanın ticarət dövriyyəsində ixracın payı 50 faiz artıb, idxal 17 faiz azalıb, tədiyyə balansında 1 milyard dollar səviyyəsində müsbət saldo əldə olunub. İdxalın azalması, ixracın kəskin artması iqtisadi sabitliyi möhkəmləndirib, maliyyə-valyuta bazarında sabitliyin güclənməsinə, milli valyutamızın məzənnəsinin möhkəmlənməsinə səbəb olub.

## *2017-ci ilin ilk üç ayı ərzində Azərbaycanın ticarət dövriyyəsində ixracın payı 50 faiz artıb, idxal 17 faiz azalıb, tədiyyə balansında 1 milyard dollar səviyyəsində müsbət saldo əldə olunub*

***- Qeyri-neft ixracının artırılması üçün dövlətin və sahibkarların üzərinə konkret hansı vəzifələr düşür?***

- «Strateji Yol Xəritəsi»ndə ixracla bağlı hədəflərdən biri adambaşına düşən qeyri-neft ixracını 2025-ci ildə 450 dollara çatdırmaqdır. Hazırda bu rəqəm təxminən 150 dollar təşkil edir. Bu göstəricini üç dəfə artırmaq üçün qeyri-neft sektorunu daha da inkişaf etdirmək lazımdır. Ölkəmizin sənaye potensialının artırılması, bölgələrdə sənaye zonalarının, fermer təsərrüfatlarının yaradılması, aqrar sahəyə dövlət dəstəyinin gücləndirilməsi istiqamətində digər layihələrin həyata keçirilməsi zəruridir. İxracın təşviqi ilə bağlı sahibkarlara dövlət tərəfindən kifayət qədər dəstək verilir. Amma bəzi sahələrdə texniki və inzibati amillərə yenidən diqqət yetirmək lazımdır. İxrac prosedurlarının sadələşdirilməsinə, «Made in Azerbaijan» brendinin dünyada tanıdılması ilə bağlı əlavə addımların atılmasına ehtiyac var. Regionlarda bank, maliyyə və sığorta, informasiya texnologiyaları, elektron ixrac sisteminin inkişafı üçün işlək mexanizmlər yaradılmalıdır. Son illər ərzində Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara dövlət tərəfindən 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilib. Ancaq bu prosesdə bank və kredit təşkilatları da fəal olmalı, yüngül şərtlərlə region sahibkarlarına güzəştli kreditlər ayırmalıdırlar. Qeyri-neft ixracında kənd təsərrüfatı əsas prioritetlərdən biri kimi müəyyən edilsə də aqrar bölmədə sığorta və girov məsələləri kimi çətinliklərin olması sahibkarların maliyyə vəsaitləri əldə etmək imkanını əngəlləyir.

Sahibkarların üzərinə düşən əsas məsələ istehsalı davamlı şəkildə artırmaq və daxili tələbatı tam ödəmək, bundan sonra rəqabətqabiliyyətli ixraca başlamaqdır. Xarici ölkələrdə ənənəvi bazarlardan yeni bazarlara çıxış əldə etmək vacibdir. Hesab edirəm ki, həyata keçirilən siyasət qarşıdakı illərdə Azərbaycanda güclü və rəqabətədözümlü qeyri-neft ixracı sektorunun möhkəmlənməsinə səbəb olacaq.

> Vergi Məcəlləsinə edilmiş son əlavə və dəyişikliklər əlverişli investisiya mühitinin yaradılması, ölkədə iqtisadi fəallığın yüksəldilməsi, qeyri-neft sektorunun inkişafının stimullaşdırılması, vergi daxilolmaları üzrə iqtisadi artıma nail olunması, iqtisadiyyatda rəqabət qabiliyyətinin daha da yüksəldilməsi, vergi dərəcələrinin optimallaşdırılması yolu ilə yeni sahibkarlıq subyektlərinin yaranması baxımından mühüm əhəmiyyət kəsb edir

***- Qeyri-neft sektorunun inkişafında həyata keçirilən vergi siyasətini necə qiymətləndirirsiniz?***

- Səmərəli vergi siyasətinin həyata keçirilməsi qeyri-neft sektorunun inkişafına müsbət təsir edən əsas amillərdəndir. Son illərdə qeyri-neft sektorunun inkişafına vergi dərəcələrinin aşağı salınması yolu ilə dəstək verilir. Vergi Məcəlləsinə edilmiş son əlavə və dəyişikliklər əlverişli investisiya mühitinin yaradılması, ölkədə iqtisadi fəallığın yüksəldilməsi, qeyri-neft sektorunun inkişafının stimullaşdırılması, vergi daxilolmaları üzrə iqtisadi artıma nail olunması, iqtisadiyyatda rəqabət qabiliyyətinin daha da yüksəldilməsi, vergi dərəcələrinin optimallaşdırılması yolu ilə yeni sahibkarlıq subyektlərinin yaranması baxımından mühüm əhəmiyyət kəsb edir. Vergi yükünün azaldılması və sahibkarlara vergi güzəştlərinin tətbiq edilməsi, buğdanın idxalı və satışının, buğda ununun və çörəyin istehsalı və satışının, quş ətinin satışının ƏDV-dən azad olunması qeyri-neft sektoruna göstərilən dəstəyin təzahürü hesab edilə bilər. Bu və digər istehsalı səmərələşdirən amillər nəticəsində vergitutma bazasının genişlənməsi yolu ilə dövlət büdcəsinə daxil olan vergilərin həcmi artır.

Aparılan stimullaşdırıcı və təşviqedici vergi siyasəti öz mühüm səmərəsini verməkdədir, artıq 2017-ci ilin ötən dövründə kiçik və orta sahibkarlığın göstəricilərində müsbət dəyişikliklərə səbəb olub. Xüsusilə də regionlardakı mövcud iqtisadi ehtiyatların, qeyri-neft resurslarının hərəkətə gətirilməsi, sahibkarların öz istehsal sahələrini genişləndirməsi və əlavə iş yerlərinin yaradılması ölkəmizdə əlverişli biznes mühitinin, mükəmməl vergi rejiminin olduğuna dəlalət edir. Bunun nəticəsidir ki, 2017-ci ilin birinci rübündə 70 mini daimi olmaqla 85 min yeni iş yeri yaradılıb. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfədən çox artım deməkdir.

***- İxracın stimullaşdırılması ilə vergi siyasəti arasında tarazlıq hansı səviyyədədir?***

- Vergi siyasəti, istehsalla yanaşı, ixrac imkanlarının artırılmasında da təşviqedici rol oynayır. Ölkədə ixracyönümlü məhsulların istehsalının artırılması, aqroparkların və iri fermer təsərrüfatlarının, sənaye parklarının və zonalarının yaradılması, tranzit və logistik potensialının yüksəldilməsi məqsədilə həyata keçirilən siyasət vergi sisteminin təkmilləşdirilməsi ilə birlikdə aparılır. Ötən il qəbul olunan ən mühüm qanunlardan biri investisiya təşviqi ilə bağlı idi ki, burada təşviq sənədi almış sahibkarlar üçün vergi güzəştləri nəzərdə tutulub. Sahibkarların əldə etdikləri mənfəətin 50%-i 7 il müddətinə gəlir və ya mənfəət vergisindən azad edilib. Həmçinin sənədi almış hüquqi şəxslər və fərdi sahibkar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı bu sənədin alındığı andan 7 il müddətinə ƏDV-dən azad olunub. Bundan başqa, hüquqi şəxslər və fərdi sahibkarlar müvafiq əmlaka görə 7 il müddətinə əmlak vergisi, mülkiyyətlərində olan torpaq sahələrinə görə isə 7 il müddətinə torpaq vergisindən azad ediliblər. Sənaye zonaları və bəzi sahələr üzrə vergi güzəştlərinin tətbiqi də qeyri-neft ixracının stimullaşdırılmasında vergi siyasətinin mühüm rolunun göstəricisi hesab oluna bilər.

İxracı stimullaşdırmaq məqsədilə bu ildən ixrac fəaliyyəti ilə məşğul olan şəxslərin apardıqları əməliyyatlardan yaranan ƏDV üzrə artıq ödənilmiş vergilərin qaytarılması müddətləri də azaldılıb. İxraca dəstək məqsədilə vergi-gömrük, tarif siyasəti ötən il təkmilləşdirilib, xarici dövlətlərə məhsul ixrac edən sahibkarların daşıma xərcləri aşağı salınıb. Azərbaycan ərazisindən xarici dövlətlərə daşınan mallar üç il müddətinə yol vergisindən azad olunub.

***- Milli Məclisin gündəliyində 2017-ci ildə iqtisadi sahəyə aid hansı qanun layihələrinin müzakirəsi durur?***

- Parlamentin yaz sessiyası çərçivəsində bir sıra mühüm qanun layihələrinin plenar iclasda müzakirəyə çıxarılması nəzərdə tutulub. Onlardan iqtisadi qanunvericiliyə aid olanları da var. Hazırda kənd təsərrüfatında sığorta sisteminin stimullaşdırılması, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı, turizmin inkişafı, telekommunikasiya, reklam, qiymətli kağızlar bazarı ilə əlaqədar qanun layihələrinin müzakirəsi davam etdirilir. Bundan başqa, bir sıra qanun və məcəllələrə edilmiş dəyişikliklərdən irəli gələn iqtisadi məsələlərin həlli məqsədilə bəzi qanunlara əlavə və dəyişikliklər də parlamentin iş planına daxildir. Bununla yanaşı, ölkədə aparılan islahatlara və qarşıya çıxan yeni tələblərə uyğun olaraq, müvafiq iqtisadi qanunlara əlavə və dəyişikliklərin edilməsi də istisna deyil.

*Müsahibəni hazırladı:*
**Elbrus CƏFƏRLİ**

# Qanunun təkmilləşdirilməsi e-ticarətin fəallaşmasına imkan yaradır

Dünya miqyasında elektron ticarətin vüsət alması yeni yaranmış münasibətlərin tənzimlənməsinə, o cümlədən texniki, iqtisadi, maliyyə, vergi və hüquq normalarının uzlaşdırılmasına zərurət yaradıb. Son illərdə ABŞ, Kanada, Avstraliya və bəzi Avropa ölkələrində elektron qaydada həyata keçirilən biznesi tənzimləyən qanunvericilik aktları qəbul edilir.

Artıq Azərbaycanda da biznesin elektron qaydada aparılması zamanı meydana çıxan hüquqi və iqtisadi münasibətləri tənzimləyən bir sıra qanunvericilik aktları qəbul olunmuşdur. Elektron ticarətin vergiyə cəlb edilməsi ilə bağlı Vergi Məcəlləsində və «Elektron ticarət haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci və 5-ci maddələrində müvafiq əlavə və dəyişikliklər edilmişdir.



Dəyişikliklər elektron ticarət aparan vergi ödəyicilərinə şəffaf nəzarətin təmin edilməsinə, rezident və qeyri-rezident elektron ticarət iştirakçıları arasında diskriminasiyanın aradan qaldırılmasına nail olmaq məqsədi daşıyır. Bu dəyişikliklər əsasən elektron ticarətin əhatə dairəsinin genişləndirilməsini, elektron ticarətin əsas iştirakçılarından olan kart təşkilatının, təcrübədə geniş tətbiq edilən pul kisəsinin anlayışını, habelə elektron ticarətin iştirakçısı olan satıcıya dair tələbləri müəyyən edən normaları özündə əks etdirir.

Vergi Məcəlləsinə rəqəmsal iqtisadiyyat çərçivəsində aparılan əməliyyatların vergiyə cəlb edilməsinin işlək mexanizmini müəyyən edən maddələr əlavə edilmişdir.

Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Nicat İmanov bildirmişdir ki, Vergi Məcəlləsinin 16.1.11-1-ci maddəsinə edilmiş dəyişikliyə əsasən, nağdsız ödənişlərin aparılması üçün «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq POS-terminalların quraşdırılmasını və (və ya) «Elektron ticarət haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq satıcı kimi fəaliyyət göstərdikdə, həmin Qanuna əsasən istehlakçıların elektron ödəniş etmək imkanını təmin etmək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Vergi Məcəlləsinin 168.1.5-ci maddəsinə edilmiş əlavəyə əsasən, elektron ticarətin satıcıları (təchizatçıları) tərəfindən işlər və xidmətlər təqdim edildiyi, habelə elektron qaydada təşkil olunan lotereyalar, digər yarışlar və müsabiqələr keçirildiyi halda, işlərin və ya xidmətlərin alıcısının yerləşdiyi və ya qeydiyyatda olduğu, təsis edildiyi, işlər və ya xidmətlər alıcının daimi nümayəndəliyi ilə bilavasitə bağlı olduğu halda həmin daimi Vergi Məcəlləsinin 169.1-ci maddəsinə edilmiş əlavəyə əsasən ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində Vergi Məcəlləsinin 169.2-ci və ya 169.5-ci maddələrində adı çəkilən vergi agenti üçün xidmət göstərirsə və ya iş görürsə (o cümlədən elektron ticarət qaydasında Azərbaycan Respublikasının hüdudlarından kənarda otel xidmətlərinin və aviabiletlərin sifarişi üzrə xidmətlər istisna olmaqla, işlərin görülməsi və xidmətlərin göstərilməsi) ƏDV məqsədləri üçün işlərin görülməsi və ya xidmətlərin göstərilməsi bu maddəyə uyğun olaraq vergiyə cəlb olunur».

N.İmanovun sözlərinə görə, Vergi Məcəlləsinin 169.3-cü maddəsinə edilmiş əlavələrə əsasən, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezidentə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsinə görə vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən ödənişlər aparılarkən qeyd edilən maddə ilə müəyyən edilmiş qaydada qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV hesablanmalı və ödənilməlidir.

> Dövlət Statistika Komitəsinin məlumatına əsasən, Azərbaycanda elektron ticarət bazarının həcmi 2017-ci ilin yanvar-mart aylarında 10,1 milyon manat təşkil edib. Ötən dövr ilə müqayisədə pərakəndə elektron ticarətin ümumi həcmi 1,7 dəfə artıb. Hesabatda qeyd olunur ki, bu ilin birinci rübündə pərakəndə ticarət dövriyyəsi 7,9 milyard manat təşkil edib ki, bu da 2016-cı ilin bu dövrü ilə müqayisədə 1,6 faiz çoxdur.

**Fəxriyyə İKRAMQIZI**

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin may və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin may və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə

www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi



Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## Pərakəndə ticarət zamanı malların rəsmiləşdirilməsi

***Məhsulların istehsalını və satışını həyata keçirən müəssisə tərəfindən həmin məhsulların anbardan pərakəndə ticarət obyektlərinə verilməsi hansı qaydada rəsmiləşdiriləcəkdir?***

Azərbaycan Respublikası Prezidentinin 19 aprel 2017-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası»nın 3.5-ci bəndinə əsasən, pərakəndə ticarət fəaliyyəti göstərən vergi ödəyicisinin bu fəaliyyətlə yanaşı, istehsal (o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalı) və topdansatış fəaliyyəti üzrə təsərrüfat subyektləri (obyektləri) mövcud olduqda, həmin təsərrüfat subyektlərindən (obyektlərdən) malların pərakəndə satış fəaliyyətində istifadə üçün götürülməsi və ya qaytarılması «Malların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası» ilə sənədləşdirilir.

**Qeyd olunanlara əsasən:**

İstehsalçı müəssisə tərəfindən istehsal olunan məhsulların özünə məxsus təsərrüfat obyektlərində (subyektlərində) pərakəndə qaydada satışının həyata keçirilməsi məqsədilə həmin məhsulların istehsal müəssisəsindən pərakəndə satış fəaliyyətində istifadə üçün götürülməsi və ya qaytarılması «Malların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası» ilə sənədləşdirilməklə rəsmiləşdirilir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# İstehsalçıların vergi yükünün optimallaşdırılması ixracı stimullaşdırır

Vergi yükünün optimallaşdırılması və sahibkarlar üçün əlverişli biznes mühitinin yaradılması qeyri-neft sektorunun inkişafı, o cümlədən ixracın stimullaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir və qarşıda duran əsas hədəflərdən biridir. Bu məqsədlə vergi qanunvericiliyində bir sıra dəyişikliklər edilib, müxtəlif vergi güzəştləri tətbiq olunub. Güzəştlər əsasən kənd təsərrüfatı məhsullarının istehsalçılarına, sənaye, yaxud texnologiyalar parklarının rezidentlərinə və investisiya təşviqi sənədini almış hüquqi şəxslərə, həmçinin fərdi sahibkarlara tətbiq edilir.

Bu barədə AZƏRTAC-a müsahibəsində məlumat verən Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva bildirib ki, qeyri-neft ixracatçılarının respublika müşavirəsində sahibkarlığın inkişafına dövlət dəstəyində mühüm amil olan vergi güzəştlərinin tətbiqinə də toxunulub. Prezident İlham Əliyev ölkədə qeyri-neft sektoru sahəsində sahibkarlığın inkişafı ilə bağlı 2009 və 2014-cü illərdə regional inkişaf proqramlarının qəbul olduğunu və zəruri tədbirlərin həyata keçirildiyini vurğulayıb.

Departament rəhbərinin sözlərinə görə, ötən il Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, 2016-cı ilin yanvar ayının 1-dən investisiya fəaliyyətini həyata keçirən hüquqi şəxslər və fərdi sahibkarlar Azərbaycan Respublikası Prezidentinin müəyyənləşdirdiyi qaydaya uyğun olaraq, verilən investisiya təşviqi sənədi əsasında əlavə dəyər vergisindən, əmlak və torpaq vergilərindən, o cümlədən 7 il müddətinə əldə etdiyi gəlirin (mənfəətin) 50 faizi məbləğində gəlir və mənfəət vergilərindən azaddır. Eyni zamanda, kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən çəkilən xərclərin optimallaşdırılması məqsədilə toxum və tinglərin, mineral gübrələrin, pestisidlərin idxalı və satışı da ƏDV-dən azad edilib. Həmçinin, sənayedə istehsalın təşviqi məqsədilə sənaye, yaxud texnologiyalar parkının rezidenti olan şəxslər 7 il müddətinə gəlir (mənfəət), əmlak və torpaq vergisindən, eləcə də İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında idxal edilən texnikaya, texnoloji avadanlıqlara və qurğulara görə ƏDV-dən azad olunublar.

«Bununla yanaşı, 2016-2020-ci illərdə istehsal olunan qeyri-neft məhsullarının ixracının təşviqi məqsədilə Azərbaycan Prezidentinin «Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında» 2016-cı il 1 mart tarixli Fərmanında qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına faktiki ixrac olunmuş malın gömrük dəyərinin 3 faizi həcmində ixrac təşviqinin ödənilməsi nəzərdə tutulur. Məlum olduğu kimi, malların ixracından ƏDV sıfır dərəcəsi ilə tutulur. Bu da o deməkdir ki, ixracda həmin mallardan ƏDV tutulmamaqla yanaşı, ixrac olunan həmin malların istehsalı ilə bağlı digər şəxslərə ödənilmiş ƏDV dövlət tərəfindən həmin malların ixracatçılarına qaytarılır. Göründüyü kimi, qüvvədə olan qanunvericilik aktlarında istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinə vergi güzəştləri və bu sahəyə investisiyaların təşviqi ilə bağlı çoxsaylı müddəalar var», - deyə S.Musayeva qeyd edib.

**Qüvvədə olan qanunvericilik aktlarında istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinə vergi güzəştləri və bu sahəyə investisiyaların təşviqi ilə bağlı çoxsaylı müddəalar var**

S.Musayeva diqqətə çatdırıb ki, Vergilər Nazirliyi milli iqtisadiyyatın perspektivi üzrə, respublikada kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair, Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair strateji yol xəritələrində müvafiq olaraq «Səmərəli vergi sisteminin təşviq edilməsi», «Kənd təsərrüfatı məhsullarının daxili bazardakı ticarəti üzrə uçot göstəriciləri ilə bağlı tənzimləmə sisteminin hüquqi əsaslarının təkmilləşdirilməsi», «Yoxlamaların optimallaşdırılması və risk dərəcəsi əsasında aparılması, həmçinin «Kiçik və orta sahibkarlıq sahəsində stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsi» strateji hədəfləri üzrə əsas icraçı olaraq müəyyən edilib. Müvafiq strateji yol xəritələri üzrə müəyyən olunmuş hədəflərə çatmaq istiqamətində hazırlanmış iş planına uyğun olaraq, işçi qruplar yaradılıb və zəruri tədbirlər görülür.

# Banklarda hesabların açılması üçün şəhadətnamə-dublikatın verilməsi

Bu elektron xidmət Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı vasitəsilə və ya vergi ödəyicilərinin Çağrı Mərkəzinə müraciəti əsasında bank idarələrində hesabların açılması məqsədilə elektron qaydada ərizə göndərilməsini və həmin ərizə əsasında şəhadətnamə-dublikatın verilməsini əhatə edir.

İnternet Vergi İdarəsi Portalı vasitəsilə göstərilən xidmət tam, Çağrı Mərkəzi vasitəsilə göstərilən xidmət qismən avtomatlaşdırılmışdır. Ərizə elektron qaydada vergi orqanına göndərildikdən sonra 2 gündən gec olmayaraq şəhadətnamə-dublikat verilir və elektron qaydada vergi ödəyicisinin ərizəsində qeyd edilmiş bankın informasiya sisteminə göndərilir.

**İnternet Vergi İdarəsi Portalı vasitəsilə** - Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirmə nömrəsini almış və vergi ödəyicisi ilə vergi orqanı arasında «Elektron sənəd mübadiləsi haqqında» müqavilə əsasında istifadəçi kodu, parol və şifrə və ya gücləndirilmiş elektron imza əldə etmiş şəxslər xidmətdən istifadə edə bilərlər.

Bunun üçün istifadəçi Vergilər Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərin siyahısından «Banklarda hesabların açılması üçün şəhadətnamə-dublikatın verilməsi» xidmət növünü seçdikdən sonra nazirlik tərəfindən verilmiş istifadəçi kodu, parol və şifrə və ya gücləndirilmiş elektron imza vasitəsilə İnternet Vergi İdarəsi Portalının «Onlayn kargüzarlıq və E-VHF» bölməsinə daxil olmalıdır. «Yeni müraciət» düyməsini sıxdıqdan sonra «Kimə» siyahısından «Vergilər Nazirliyi», «Müraciətin növü» siyahısından «Ərizə», «Sənədin növü» siyahısından «Şəhadətnamə-dublikatın alınması üçün ərizə»ni seçməli və «Qəbul» düyməsini sıxmalı və daha sonra açılan ekranda ərizə üzrə tələb olunan məlumatları daxil etməlidir. Bu zaman məlumatların yoxlanması üçün təsdiqləmə ekranı gəlir. İstifadəçi məlumatların doğruluğuna əmin olduqda «Qəbul» düyməsini, əks halda, «İmtina» düyməsini sıxmalıdır.

Ərizə təqdim edən vergi ödəyicisinin dövlət büdcəsinə vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcu olduqda xidmətin göstərilməsindən imtina edilir.

**Çağrı Mərkəzi vasitəsilə** xidmətdən Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirmə nömrəsini almış və «Asan imza» əldə etmiş şəxslər istifadə edə bilərlər. Bunun üçün istifadəçi Çağrı Mərkəzinə (195-1) zəng etməli və «ASAN imza»nın bağlı olduğu mobil telefon nömrəsini təqdim etməlidir. İstifadəçi kimliyinin müəyyənləşdirilməsi məqsədilə mobil telefona gəlmiş SMS-lə tanış olduqdan sonra «ASAN imza» PİN2 kodunu daxil etməlidir. Bundan sonra istifadəçi tərəfindən təqdim edilən məlumatlar əsasında «Şəhadətnamə-dublikatın alınması üçün ərizə» Çağrı Mərkəzinin təmsilçisi tərəfindən doldurulacaq və istifadəçinin mobil telefon nömrəsinə ərizədə qeyd olunan məlumatlar barədə SMS göndəriləcək. İstifadəçi SMS-lə tanış olduqdan sonra yoxlama kodunu təsdiqləməli və «Asan imza» PİN2 kodunu daxil etməklə ərizəni imzalamalıdır.

Əməliyyat başa çatdıqdan sonra istifadəçinin mobil telefonuna bankda hesab açılması məqsədilə şəhadətnamə-dublikatın alınması üçün ərizənin qəbul edilməsi barədə SMS və elektron ünvana ərizənin göndərilməsinin «Əməliyyat tarixçəsi» barədə məlumat daxil olacaq. Şəhadətnamə-dublikatın alınması üçün elektron ərizə üzrə tələb olunan məlumatların istifadəçi tərəfindən təqdim edilməsi Çağrı Mərkəzinin təmsilçisi tərəfindən həmin məlumatların sistemə daxil olması, məlumatların düzgünlüyünün müraciət etmiş şəxs tərəfindən təsdiq edilməsi tezliyindən asılı olaraq yerinə yetirilir. Şəhadətnamə-dublikat isə müvafiq ərizə elektron qaydada vergi orqanına göndərildikdən sonra 2 gündən gec olmayaraq verilir.




**Xidmətin göstərilməsindən bu hallarda imtina edilir:**

- vergi ödəyicisinin dövlət büdcəsinə vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcu olduqda;
- mobil telefon nömrəsi səhv bildirildikdə və ya həmin nömrə ilə bağlı nasazlıq olduqda;
- müraciət edən şəxs «ASAN imza»ya sahib olmadıqda;
- mobil telefon nömrəsində «ASAN imza» xidməti aktiv olmadıqda.

Bununla yanaşı, ərizədə qeyd edilməli olan məlumatlar dəqiq bildirilmədikdə, müraciət iş vaxtı edilmədikdə də xidmətin göstərilməsindən imtina edilir. İmtinaya əsas olmadıqda ərizə qəbul olunur və onun əsasında vergi ödəyicisinə şəhadətnamə-dublikat verilir.

**AYTƏN**

# Vergi öhdəliklərinin əvvəlcədən müəyyən edilməsi

*Vergi ödəyicilərinin öhdəliklərinin düzgün müəyyən edilməməsi nəticəsində maliyyə sanksiyalarına məruz qalması hallarının qarşısının alınması üçün planlaşdırılan əməliyyatlar üzrə vergi öhdəliklərinin ödəyicinin müraciəti əsasında əvvəlcədən müəyyən edilməsi mexanizminin tətbiqinə başlanmışdır.*

Vergi siyasəti və strateji araşdırmalar departamentinin Vergi siyasəti idarəsinin direktoru Əvəz Quliyev mövzunu şərh edərək bildirmişdir ki, bu sahədə Vergi Məcəlləsində edilmiş son dəyişikliyin mahiyyəti vergi ödəyicisinin gələcəkdə iri məbləğli müqavilələr üzrə həyata keçirəcəyi vergi tutulan əməliyyatlar barədə vergi orqanlarına məlumat verməsi və bu əməliyyatlar üzrə yaranacaq vergi öhdəlikləri barədə vergi orqanının rəsmi qərarını əldə edərək, yarana biləcək vergi risklərindən sığortalanmış olmasıdır: «Bu məqsədlə vergi öhdəlikləri hüquqi nəticələr doğurmazdan əvvəl vergi orqanları ilə razılaşdırılmalı, hər bir belə əməliyyatın dəyəri 10 milyon manatdan az olmamalı və vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərarın qəbul edilməsinə görə 500 manat məbləğində dövlət rüsumu ödənilməlidir.

Sahibkarlıq fəaliyyəti müxtəlif risklər, əsasən də vergi riskləri ilə müşayiət edilir. Bir çox hallarda vergi orqanları və vergi ödəyiciləri üçün vergi riski qanunvericilikdə mövcud olan boşluqlar əsasında yaranır ki, bu da tərəflərin maraqlarının toqquşması nəticəsində mübahisəli məsələlərin yaranmasına gətirib çıxarır.

Vergitutmanın hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi və eyni zamanda, onun düzgün şərhi vasitəsilə belə risklərin azaldılmasına nail olmaq olar. Beynəlxalq təcrübədə də bu məqsədlər üçün əvvəlcədən vergi tənzimləmələri mexanizmlərindən geniş istifadə edilir. Bir sıra xarici dövlətlərin vergi qanunvericiliklərində vergi risklərinin azaldılmasına və gələcəkdə yarana biləcək vergi mübahisələrinin qarşısının alınmasına xidmət edən metodlardan biri kimi «Vergi öhdəliklərinin əvvəlcədən müəyyən edilməsi» (Advance Tax Rulings) təcrübəsindən istifadə edilir.

Ə.Quliyevin bildirdiyinə görə, bu təcrübənin mahiyyəti vergi orqanının vergi ödəyicisinin rəsmi sorğusu əsasında onun həyata keçirilməsini planlaşdırdığı əməliyyatlarının hansı qaydada vergiyə cəlb edilməsinə dair əvvəlcədən rəy verməsidir: «Bu rəyin vergi ödəyicisi üçün üstün cəhəti əməliyyatlarını - gələcəkdə bu əməliyyatlara əlavə vergilərin tətbiq edilməsi təhlükəsi olmadan - həyata keçirməsində, vergi orqanı üçün isə ilkin mərhələdə vergi ödəyiciləri tərəfindən həyata keçiriləcək əməliyyatlar barədə geniş məlumatlar əldə etməsindədir.

Vergi öhdəliklərinin əvvəlcədən müəyyən edilməsinin əsas xüsusiyyətlərinə daxildir:

- səlahiyyətli dövlət orqanları tərəfindən vergi ödəyicilərinin təqdim etdikləri yazılı sorğular əsasında vergi öhdəliklərinin əvvəlcədən müəyyən edilməsi;
- vergi qanunvericiliyinin müddəaları barədə yazılı izahatların təqdim edilməsi öhdəliyi;
- qüvvədə olan vergi qanunvericiliyi ilə tam tənzimlənməyən maliyyə-təsərrüfat müddəaları barədə izahların verilməsi;
- vergi öhdəliklərinin əvvəlcədən müəyyən edilməsinin yazılı formaları;
- vergi öhdəliklərinin əvvəlcədən müəyyən edilməsi üzrə təqdim olunan izahların ölkənin Konstitusiyasına, vergi və digər qanunvericiliklərinə və tərəfdaş çıxdığı beynəlxalq müqavilə və sazişlərin müddəalarına zidd olmaması.

Müraciət edən vergi ödəyicisi, vergi qanunvericiliyinin qeyri-müəyyən müddəaları barədə izahat əldə etməklə, bu müddəaların onun gələcək əməliyyatlarının maliyyə nəticələrinə təsirini aydınlaşdırmağa çalışır. Bu məqsədlə də vergi ödəyicisi vergi orqanının rəsmi mövqeyi barədə daha aydın və dəqiq məlumat əldə etmək üçün müraciətində həyata keçirəcəyi əməliyyatları ətraflı izah etməlidir».

**Vergitutmanın hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi və onun düzgün şərhi vasitəsilə risklərin azaldılmasına nail olmaq olar**

Qeyd etmək lazımdır ki, adətən, vergi ödəyiciləri tərəfindən əldə edilən bu sənəd onların əməliyyatlarını məhdudlaşdırmır. Buna baxmayaraq, bir sıra ölkələrdə müəyyənləşdirilmiş şərtlərə əməl etməyən vergi ödəyicilərinə cərimələr tətbiq olunur.

İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının transfer qiymətləri ilə bağlı qaydaları vergi orqanları ilə əməliyyat aparan şəxslər arasında qiymətlərin əvvəlcədən müəyyən edilməsi barədə razılığın əldə olunmasına şərait yaradır. Bu razılaşma vergilərin yenidən hesablanması üçün əlavə yoxlamaların aparılması zərurətini aradan qaldırır. Vergi öhdəliyinin əvvəlcədən müəyyən olunması üzrə müraciət edən vergi ödəyicisi əməliyyatları üzrə yarana biləcək vergi öhdəliklərini əvvəlcədən tam aydın şəkildə təsəvvür edir ki, bu da onun vergi planlaşdırmasında yardımçı rol oynayır. Bundan əlavə, belə bir təcrübənin mövcud olması həm vergi ödəyicilərini müvafiq qaydada qoruyur, həm də onların vergi qanunvericiliyinin mürəkkəb müddəalarını əməli şəkildə yanlış anlamalarının qarşısını aldığına görə, vergidən yayınma hallarını aradan qaldırır.

Digər tərəfdən, vergi orqanı vergi ödəyicisinin əməliyyatları barədə əvvəlcədən məlumatlı olur. Bu təcrübə vergi qanunvericiliyinin tətbiqi ilə bağlı vergi orqanı ilə vergi ödəyicisi arasında yarana biləcək mübahisəli məsələləri, o cümlədən məhkəmə çəkişmələrini aradan qaldırır».

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsində vergi ödəyicilərinə vergi orqanlarından qanunvericiliyin tətbiqinə dair yazılı izahatlar almaq hüququ verilmişdir: «Hesab edirik ki, bu mexanizmin tətbiqi vergi ödəyicilərinin fəaliyyətlərində onlara əminlik yaratmaqla vergitutma üzrə qanunvericiliyi həm yerli sahibkarlar, həm də xarici sərmayəçilər üçün daha şəffaf və anlayışlı edə bilər».

**F. İKRAMQIZI**

# Ölkənin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır

Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq, aprelin 25-i ölkəmizdə «Sahibkarlar günü» kimi qeyd edilir.



Bakı Biznes Mərkəzində İqtisadiyyat Nazirliyinin və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə «Sahibkarlar günü»nə həsr edilmiş konfrans keçirilib. Tədbirdə dövlət qurumlarının, beynəlxalq təşkilatların, xarici ölkələrin Azərbaycandakı ticarət palatalarının nümayəndələri, həmçinin iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarlar iştirak ediblər.

Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev ölkədə sahibkarlığın inkişaf etdirilməsi istiqamətində atılan addımların sistemli və ardıcıl xarakter daşıdığını vurğulayıb: «Azərbaycan biznes mühitinin əlverişliliyi, sahibkarların rahat işləməsi üçün ən çox islahatlar aparan ölkələrdən biridir. Post-neft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabət qabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumət sahibkarlar üçün böyük imkanlar yaradıb. Ölkədə qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülür».

Qeyd edilmişdir ki, son 13 ildə iqtisadiyyatımıza 200 milyard dollar investisiya qoyulmuş, ölkəmizdə orta illik iqtisadi artım 12,2 faiz təşkil etmiş, daxili mənbələr hesabına əsas kapitala yönəldilən investisiyaların həcmi 3,6 dəfə, o cümlədən qeyri-neft sektoruna yönəldilən investisiyalar 9,6 dəfə, minimum əməkhaqqının səviyyəsi 3,5 dəfə, ölkə üzrə orta aylıq əməkhaqqı 3,3 dəfə, orta aylıq pensiya isə 4,7 dəfə artmışdır. Nəticə etibarilə ölkədə yoxsulluğun səviyyəsi 6 faizdən, işsizlik səviyyəsi isə 5 faizdən aşağı enmişdir. Bu dövrdə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara dövlət tərəfindən 2 milyard manatdan çox güzəştli kreditlər verilmişdir.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov öz çıxışında qeyd etmişdir ki, dövlət başçısının «Ölkəmizin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır» strateji xəttinə uyğun olaraq həyata keçirilən kompleks və ardıcıl tədbirlər, səmərəli dövlət dəstəyi sistemi, vergi güzəştlərinin tətbiqi, sənaye və texnologiyalar parklarının və zonalarının, aqroparkların, biznes-inkubatorların yaradılması, yerli istehsalın dəstəklənməsi, güzəştli şərtlərlə kreditlərin verilməsi, dövlətlə birgə maliyyələşdirmə və risklərin bölüşdürülməsi, maarifləndirici işlərin, biznes forumların, sərgilərin təşkili və s. kimi tədbirlər nəticəsində sahibkarlıq iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib, ÜDM-də özəl bölmənin payı 80%-i ötüb.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə sahibkarlıq fəaliyyətinin inkişafı, biznes mühitinin yaxşılaşdırılması, eləcə də bu sahədə aparılan islahatlar və qəbul edilən qanunvericilik aktlarının önəmini vurğulayaraq bildirmişdir ki, hər bir ölkənin sərvətini, imkanlarını genişləndirən ən güclü amil sahibkarlıqdır: «Sahibkarlıq Azərbaycanın iqtisadi həyatının, yüksəlişinin təməl daşıdır. Ölkəmizdə daxili bazarın qorunması ilə əlaqədar bütün imkanlardan istifadə edilir. Emal-sənaye müəssisələri yaradılıb. Uğurlu sənayeləşmə siyasəti həyata keçirilir, müasir, beynəlxalq standartlara uyğun sənaye parkları, sənaye məhəllələri, sənaye zonaları yaradılır ki, bunun müqabilində də 2017-ci ilin birinci rübündə qeyri-neft ixracı 8, 6% artmışdır».

Nazirlər Kabinetinin şöbə müdiri Şahin Sadıqov, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Mehbalıyev, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İdris İsayev tədbirdə çıxış edərək, diqqəti sahibkarlığın inkişafı ilə bağlı müxtəlif aspektlərə yönəltmişlər.

Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycan üzrə direktoru Aliyə Əzimova təmsil etdiyi təşkilatın qeyri-neft sektorunun inkişafına və sahibkarlığın dəstəklənməsinə göstərdiyi investisiya və məsləhət xidmətləri barədə məlumat vermişdir.

Konfransda çıxış edən sahibkarlar, Azərbaycanda Amerika Ticarət Palatasının («AmCham), ATİB-in, Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasının nümayəndələri sahibkarlıq sahəsində həyata keçirilən islahatları və qəbul edilmiş hüquqi aktları böyük razılıqla qarşıladıqlarını bildirmişlər.

Konfrans çərçivəsində 15 sahibkarlıq subyektinə ümumi dəyəri 86,5 mln. manat olan investisiya layihələri üzrə investisiya təşviqi sənədi və 15 sahibkara ixracla bağlı 704,9 min manat həcmində geri ödəmə barədə məktub-sərəncamlar təqdim edilmişdir.

## *Sahibkarların təəssüratları...*

***Zemfira Ağayeva,***
*«Sahibkar qadınlar» İctimai Birliyinin sədri*

Mən «Qızıl əllər»tədris mərkəzinin peşə kurslarının rəhbəriyəm. Hər il 500-dən çox gənc xanım peşə kursunu bitirərək, artıq öz şəxsi biznesinə başlayır. İndi QHT-lərə Dəstək Şurası tərəfindən evdar qadınların sahibkarlığa cəlb olunması ilə bağlı yeni bir layihə üzərində işləyirik. Bu layihə 4 rayon üzrə keçirilməlidir. Uğurlu layihə olacağına inanıram, çünki təkcə seçim turuna 40 iştirakçı əvəzinə 80-i qatılıb. Bu, evdar qadınlar arasında da sahibkarlığa meylin yüksək olduğunun göstəricisidir.

***Camal Yanğın,***
*Azərbaycan-Türkiyə İş adamları Birliyinin İdarə heyətinin sədri*

24 ildir ki, Azərbaycandayam. Bu illər ərzində imkanım daxilində iqtisadiyyatımızın yüksəldilməsimə töhfələr verməyə çalışmışam. Birliyimiz sürətlə inkişaf edir. Layihələrlə bağlı Azərbaycanda və Türkiyədə, eləcə də regiondakı bir sıra ölkələrlə münasibətlər qururuq. Üzvlərimizin sayı günbəgün artır. Azərbaycanın iqtisadiyyatına, sosial həyatına könüldən dəstək verəcək, ölkənin inkişafında rol ala biləcək nümayəndələri öz sıralarımıza əlavə edirik.

***Ali İnsan Genc,***
*Türkiyə və Azərbaycan Sənayeçi İş Adamları İctimai Birliyinin sədri*

Bu gün sahibkarların bayramıdır. Sahibkar cəmiyyətin hərəkətedici gücüdür, ölkənin təbii resurslarını hərəkətə gətirir, ondan iqtisadi dəyər yaradır və bazara çıxmasını təmin edir. Sahibkarın birinci vəzifəsi işini yaşadığı cəmiyyətin maraqlarına uyğun qurmaq, ondan sonra bu işi uğurlaidarə edərək ölkəsini irəliyə aparmaqdır.

Qanunvericilikdə son zamanlar çox böyük dəyişikliklər olmuşdur. Bu dəyişikliklər sahibkarların önündəki maneələri aradan qaldırır.

***Camal Nayıbov,***
*«Bakı-Praqa» pivə zavodunun direktoru*

Ölkə iqtisadiyyatının inkişafında keyfiyyətcə yeni mərhələ başlanıb. Bu mərhələdə sahibkarların fəaliyyətinə əsassız və qanunsuz müdaxilələrin, bürokratik yoxlamaların aradan qaldırılması, biznes mühitinin yaxşılaşdırılması xüsusi diqqət mərkəzindədir. Sahibkarların işinin dəstəklənməsi, biznesin inkişafı sahəsində atılan addımlar, verilən qərarlar və aparılan islahatlardan tam razıyıq. Bu gün dövlət qurumları bizə işimizi genişləndirməkdə yardımçı olur, sahibkarların müraciətləri yerindəcə cavablandırılıb həllini tapır, maarifləndirmə işləri öz bəhrəsini verir. Vergi sahəsində aparılan islahatları da zamanın tələbindən irəli gələn bir addım kimi qiymətləndirirəm.

***Bəşir Quliyev,***
*Meyvə-tərəvəz istehsalçılar və ixracatçılar Assosiasiyasının sədri, «Buta Qrup» şirkətinin rəhbəri*

Mənim üçün ikiqat əlamətdar bayramdır. Ölkə Prezidentinin təltifi ilə medal almaq böyük şərəfdir. Ötən il aprelin 21-də təsis olunan «Sahibkarlar günü» ölkədə aparılan siyasətin sahibkarlığın inkişafına, biznesə dəstəyinə istiqamətlənməsinin göstəricisidir.

***Jalə Hacıyeva,***
*Azərbaycan Mikromaliyyə Assosiasiyasının icraçı direktoru, ASK-nın qadın sahibkarlığının inkişafı komissiyasının sədri*

Çox qürurverici bir gündür. Mənim təltif olunmağım, əslində, bir nəfərin mükafatı deyil, kollektivə verilən qiymətdir. Ümumi işin, zəhmətin nəticəsidir. İnanıram ki, bu mükafatdan ruhlanaraq biz sahibkarlığın inkişafında, özəlliklə də qadın sahibkarlığının inkişafında daha böyük layihələrə imza atacağıq, iqtisadiyyatımızın inkişafı üçün töhfələrimizi verəcəyik. Görülən iş diqqətdən kənarda qalmır, bəhrəsini hər birimiz hiss edirik.

***Vüqar Zeynalov,***
*ASK-nın vitse-prezidenti*

«Sahibkarlar günü»nün təsis edilməsi cəmiyyətdə sahibkarlara olan münasibəti büsbütün dəyişir. Azərbaycan sahibkarının ölkə iqtisadiyyatının inkişafında, iqtisadi müstəqilliyin, təhlükəsizliyin möhkəmləndirilməsində rolu danılmazdır. Bu, sahibkarlara böyük stimuldur.

***Elxan Bəşirli,***
*«Mətanət A» MMC-nin direktoru*

Təltif olunduğum «Tərəqqi» medalı mənə gələcəkdə daha yüksək nəticələr uğrunda, daha böyük layihələri həyata keçirmək üçün güc-qüvvət verir.

İxracın təşviqi, istehsalyönümlü müəssisələrin təşviqi, onların layihələrinin stimullaşdırılması, 7 il vergilərdən azad edilməsi sahibkarlar üçün böyük etimaddır. Ölkəmizdə sahibkarlara istər maliyyə, istər siyasi, istərsə də iqtisadi yöndən hər cür dövlət dəstəyi göstərilir. Xarici investorlar investisiya qoymaq, sərmayə yatırmaq üçün Azərbaycanı seçirlər. Bu da bir daha ölkəmizdə sağlam biznes mühitinin olduğunu təsdiq edir.

***Fəxriyyə İKRAMQIZI***

## BİR CÜMLƏ - BİR XƏBƏR

«Azərbaycan Respublikasında əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» dövlət başçısının sərəncamına uyğun olaraq, əmək münasibətlərinin təkmilləşdirilməsi və koordinasiyası ilə bağlı komissiya yaradılıb.

Avropa Yenidənqurma və İnkişaf Bankı mayın 17-18-də Azərbaycanda sahibkarlıq bacarıqlarını inkişaf etdirmək, əsas maliyyə anlayışlarını başa düşmək və bizneslərini böyütmək istəyən qadın sahibkarlar üçün təlim sessiyaları keçirəcək.

Azərbaycanlı sahibkarlar və iş adamları mayın 22-23-də Bosniya və Herseqovinada keçiriləcək VIII Beynəlxalq İnvestisiya Konfransına (Sarayevo biznes-forumu) dəvət olunublar.

Ər-Riyadda keçirilən Azərbaycan-Səudiyyə Ərəbistanı əməkdaşlığı üzrə işçi qrupun 3-cü iclasında birgə müəssisələrin yaradılması imkanları araşdırılıb.

Azərbaycan məhsullarının Koreya Respublikasına ixrac imkanları araşdırılır.

Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti iyun ayının sonunda istifadəyə veriləcək.

Azərbaycan, Ukrayna, Qazaxıstan və Gürcüstan arasında Trans-xəzər Nəqliyyat Marşrutuna dair protokol imzalanıb.

Güzəştli mənzillərin əldə edilməsi üçün tələb olunan sənədlərin siyahısı müəyyənləşdirilib.

Azərbaycan İpoteka Fondunun xətti ilə 19 min 27 ipoteka krediti verilib.

Mərkəzi Bankın İdarə Heyəti faiz dəhlizinin parametrlərinin, o cümlədən uçot dərəcəsinin dəyişməz saxlanması barədə qərar qəbul edib.

Bu ilin aprel ayı ərzində Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri (BTC) vasitəsilə 2 milyon 242 min 574 ton, yanvar-aprel aylarında 8 milyon 724 min 383 ton, ümumilikdə isə kəmər istifadəyə verilən gündən bu il may ayının 1-dək 330 milyon 262 min 445 ton Azərbaycan nefti nəql edilib.

# İnsan həyatı hər şeydən üstündür

Beynəlxalq Əmək Təşkilatının (BƏT) təşəbbüsü ilə 2003-cü ildən 28 aprel Ümumdünya Əməyin Mühafizəsi günü kimi qeyd edilir - əsas məqsəd isə iş yerlərində sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasına ictimaiyyətin diqqətini artırmaqdır. BƏT-in məlumatına əsasən, hər il dünyada istehsalat qəzalarından təxminən 2,34 milyon nəfər insan həlak olur, 160 milyondan çox insan peşə xəstəliyinə məruz qalır. Bu qəzalar dünya üzrə ÜDM-in 4%-nin, yaxud 2,8 trln. ABŞ dollarının itirilməsinə səbəb olur.

Dövlət Əmək Müfəttişliyi Xidmətinin (DƏMX) məlumatına görə, Azərbaycan Konstitusiyasında, Əmək Məcəlləsində, eləcə də müvafiq normativ-hüquqi aktlarda əməyin mühafizəsi ilə bağlı hüquqi əsaslar formalaşıb, texniki təhlükəsizlik, əməyin gigiyenası, sanitariya, müalicə-profilaktika məsələlərinə dair çoxsaylı qanunvericilik aktları qəbul edilib. Əmək Məcəlləsində təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisələrdə iş yerlərinin əməyin mühafizəsi normaları və qaydalarının tələblərinə uyğun olmasına, işçilər üçün sağlam və təhlükəsiz əmək şəraitinin təmin edilməsinə cavabdehlik işəgötürənin üzərinə qoyulur.

Əməyin mühafizəsi ilə bağlı qanunvericilikdən irəli gələn tələblərə əməl olunmasına, eyni zamanda əməyin mühafizəsi üzrə xidmətin yaradılmasına bəzi işəgötürənlər tərəfindən bir sıra hallarda biganə münasibət özünü göstərir. Bu isə nəticədə istehsal qəzalarının baş verməsinə, insanların həyatını və ya sağlamlığını itirməsinə səbəb olur.

2017-ci ilin ilk rübündə DƏMX tərəfindən istehsalatla əlaqəli 31 bədbəxt hadisə qeydiyyata alınıb, nəticədə 10 nəfər dünyasını dəyişib, 24 nəfər xəsarət alıb. Təhqiqat zamanı müəyyən edilib ki, bu qəzalar əməyin mühafizəsi tələblərinin yerinə yetirilmədiyinə görə baş verib. Bu səbəbdən də hər bir işəgötürən əməyin mühafizəsinin idarə olunması məsələsinə xüsusi diqqət yetirməlidir. Müəssisədə əməyin mühafizəsinin yüksək səviyyədə təşkili sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması ilə bərabər, əməyin səmərəliliyinin artırılmasında, keyfiyyətli məhsul istehsalında vacib şərtlərdəndir.

*2017-ci ilin ilk rübündə DƏMX tərəfindən istehsalatla əlaqəli 31 bədbəxt hadisə qeydiyyata alınıb, nəticədə 10 nəfər dünyasını dəyişib, 24 nəfər xəsarət alıb*

Əməyin mühafizəsinin təmin olunması və istehsalatda bədbəxt hadisələrin qarşısının alınması üçün ilk növbədə işəgötürənlər tərəfindən işə cəlb olunmuş bütün işçilərlə bağlanmış əmək müqavilələri əmək müqaviləsi bildirişləri üzrə elektron informasiya sistemində qeydiyyatdan keçirilərək rəsmiləşdirilməlidir. Bununla yanaşı, işəgötürənlər zərərli və ağır sahələrdə qadın və yaşı 18-dən az olan işçilərin əməyindən istifadə etməməli, bütün peşə və vəzifələr üzrə təhlükəsizlik qaydaları barədə təlimatlar hazırlamalıdır. İşçilər bu təlimatlarla tanış edilməli, iş yerləri sağlam sanitariya-gigiyena şəraiti qüvvədə olan normativlərə uyğunlaşdırılmalı, normal əmək və istirahət şəraiti yaradılmalıdır. Yüksək təhlükə potensiallı sahələrdə işə başlanmazdan əvvəl təhlükəsizlik qaydalarına cavabdeh vəzifəli şəxs tərəfindən nəzarət-buraxılış verilməsi və onun icrasına daimi nəzarət edilməsi, işçilərin əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydaları üzrə təlimatlandırılması, mütəmadi olaraq işçilərin bununla bağlı biliklərinin yoxlanması, istehsalatda bədbəxt hadisələr zamanı zərərçəkənlərə ilkin tibbi yardım göstərilməsi barədə xüsusi təlimatların keçilməsi və s. kimi zəruri tədbirlər görülməlidir.

**AYTƏN**


## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

# Ənənəvi şahmat turniri başa çatdı



Hər il Vergilər Nazirliyinin əməkdaşları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş ənənəvi şahmat turniri keçirilir. Bu il aprelin 8-də start götürən növbəti turnirə həmin ayın 29-da yekun vurulub. Yarışın nəticələrinə görə 1-ci yeri 11 saylı Ərazi Vergilər Departamentinin əməkdaşı Toğrul Qasımov tutub. 4 saylı Ərazi Vergilər İdarəsinin əməkdaşı Şəhriyar Məmmədov 2-ci, Vergilər Nazirliyinin Çağrı Mərkəzinin əməkdaşı Mahmud İbrahimov isə 3-cü yerə sahib olub. 6 saylı ƏVİ-dən Emin Əlizadə həvəsləndirici mükafata layiq görülüb. Sonda qaliblərə diplomlar təqdim edilib.

## *Turnir iştirakçılarının təəssüratları:*

***Şəhriyar Məmmədov:***

«Vergilər Nazirliyinin rəhbərliyi tərəfindən hər il ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş şahmat turnirinin keçirilməsini vergi işçilərinin asudə vaxtlarının və mədəni istirahətinin təşkili baxımından yüksək qiymətləndirirəm. Yarışda dördüncü dəfə iştirak edirdim. Gələcəkdə də uğurlarımı davam etdirmək üçün turnirə qatılmaq fikrindəyəm».

***Mahmud İbrahimov:***

«Ümummilli liderin anadan olmasının ildönümünə həsr olunmuş şahmat turnirində üçüncü dəfədir ki, iştirak edirəm. Buna qədərki turnirlərdə bu mərhələyə gəlib çata bilməmişdim. Peşəkar şahmatçılarla rəqabətdə yarışı yarıda tərk etməli olmuşdum. Şadam ki, bu dəfə istəyimə nail mola bildim. Çox təqdirəlayiq haldır ki, Vergilər Nazirliyi vergi işçilərinin asudə vaxtının səmərəli keçirilməsinə ciddi əhəmiyyət verir».

***Emin Əlizadə:***

«Turnir yüksək səviyyədə təşkil olunmuşdu. Burada daha güclü, daha çevik zəkaya malik olanlar qalib gəlir».

***Toğrul Qasımov:***

«Şahmat bir zəka oyunudur, zehni inkişaf etdirməklə yanaşı, insana zövq verir. Şahmatla uşaq yaşlarımdan maraqlanıram, peşəkar səviyyədə məşğul oluram. Turnirdə birinci dəfə iştirak edirdim və qalib adını qazandım. Yarışın təşkilatçılarına minnətdarlığımı bildirirəm».

***Valeri Şelyayev,***
*Azərbaycan Həmkarlar İttifaqının Respublika Şahmat və Dama klubunun müəllimi, turnirin hakimi:*

«14 ildir bu oyunları izləyirəm. Yarışlarda yüksək təşkilatçılıq nümayiş etdirilir. Turnirə qatılan vergi işçiləri ilk növbədə öz işlərində bacarıqlarını sübuta yetirirlər, şahmatda isə onlara mən kömək edirəm. Peşəkar idmançı olmasalar da, əldə etdikləri gözəl nəticələr vergi işçilərinə şahmatı inkişaf etdirməkdə və müvəffəqiyyətə can atmaqda yardımçı olur».

*Fəxriyyə İKRAMQIZI*

# Sənayeləşmədə innovativ inkişaf



Hazırda ölkəmizdə Sumqayıt Kimya Sənaye, Balaxanı Sənaye və Qaradağ Sənaye parkları fəaliyyət göstərir, Mingəçevir və Pirallahı sənaye parklarının təşkili istiqamətində işlər aparılır.

10 rezidenti olan Sumqayıt Kimya Sənaye Parkında bu il 5, gələn il isə 2 müəssisə istifadəyə veriləcək. Mövcud layihələr üzrə rezidentlər tərəfindən sənaye parkına 1,2 milyard ABŞ dolları həcmində investisiyanın yatırılması və 2000-ə yaxın daimi iş yerinin açılması nəzərdə tutulur. Sənaye Parkında istehsal olunacaq məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, «Made in Azerbaijan» brendi ilə xarici bazarlara da ixrac ediləcək. Artıq Sənaye Parkının rezidenti olan «Azertexnolayn» müəssisəsi istehsal etdiyi məhsulun 52%-ni ixrac edib.

7 hektar sahəni əhatə edən Balaxanı Sənaye Parkında 22 milyon manat investisiya ilə tullantıların təkrar emalı üzrə 5 müəssisənin bu ilin birinci yarısında fəaliyyətə başlaması və bu müəssisələrdə 400-ə yaxın yeni iş yerinin açılması nəzərdə tutulur. Artıq Sənaye Parkının rezidentləri olan «Ekokat» MMC və «Metak» MMC parkın ərazisində test rejimində fəaliyyətə başlayıblar.

Gəmiqayırma sahəsində ixtisaslaşmış Qaradağ Sənaye Parkına indiyədək 470 milyon dollar investisiya qoyulub ki, bu da 2000 nəfərin daimi işlə təmin olunmasına imkan verir.

Mingəçevir Sənaye Parkında yüngül sənaye məhsulları, o cümlədən ayaqqabı, tibbi kosmetika, iplik, boyama, toxuma, tikiş və corab istehsalı üzrə 9 fabrikin yaradılması ilə 150-200 milyon dollar investisiya qoyuluşu və 5500-dən çox yeni iş yerinin açılması gözlənilir. Parkda yaradılacaq müəssisələr üçün xammal bazası, o cümlədən pambıq mahlıcı yerli məhsullar hesabına təmin ediləcəkdir. Bütün bunlar ölkədə ilk dəfə olaraq yüngül sənaye sahəsində klaster yanaşmasının geniş tətbiqinə imkan verəcəkdir.

Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi sahəsində həyata keçirilən tədbirlərdən biri də ölkəmiz üçün yeni sənaye sahəsi olan əczaçılıq məhsullarının istehsalı sənayesinin yaradılmasıdır. Bu məqsədlə xüsusi olaraq yaradılmış Pirallahı Sənaye Parkında artıq 2 dərman zavodunun təməli qoyulub. Növbəti zavodun təməlinin isə yaxın vaxtlarda qoyulacağı gözlənilir.

İqtisadçı ekspert Pərviz Heydərov qeyd etmişdir ki, regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsində və yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişaf etdirilməsində mühüm istiqamət ölkənin ayrı-ayrı şəhərlərində sənaye məhəllələrinin yaradılmasıdır. «Sənaye məhəllələri istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması, kooperasiya əlaqələrinin gücləndirilməsi, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Ümumiyyətlə, sənaye məhəlləsi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik, kiçik və orta sahibkarlar tərəfindən məhsul istehsalı və xidmət göstərilməsi üçün istifadə edilən ərazi anlamı verdiyindən, bilavasitə iqtisadiyyatın şaxələndirilməsinin daha dərindən təşkili və yeni, dayanaqlı gəlir mənbələri yaratmaq məqsədi daşıyır: «Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı» ölkədə sənayeləşmə prosesini sürətləndirmək baxımından xüsusi əhəmiyyət kəsb edir və sənəddə qeyd olunan məqsədlərə nail olmaq üçün mövcud istehsal sahələrini genişləndirmək, yeni sahələr yaratmaq, qeyri-neft sənayesinin ixrac potensialını artırmaq, elmtutumlu və innovativ istehsalı inkişaf etdirmək, sənaye zonaları və klasterlər yaratmaq nəzərdə tutulur».

**FƏXRİYYƏ**

# 2017-ci ilin may ayı ərzində vergi orqanına təqdim olunmalı bəyannamələr və ödənilməli vergilər barədə

## YADDAŞ

**2017-ci ilin aprel ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduğu**

- Əlavə dəyər vergisi bəyannaməsini,
- Aksiz bəyannaməsini,
- Yol vergisi bəyannaməsini,
- Mədən vergisi bəyannaməsini,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

cari ilin **may ayının 22-dən** gec olmayaraq vergi orqanına **təqdim etməli** və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

• **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsi** cari ilin **may ayının 22-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**Əmlak və torpaq vergisinin ödəyiciləri olan müəssisələr**

• **2017-ci il üzrə torpaq vergisinin bəyannaməsini** cari ilin **may ayının 15-dən** gec olmayaraq vergi orqanına **təqdim etməlidirlər**.

• **2017-ci ilin 2-ci rübü üzrə əmlak vergisinin** cari ödəmələrini bu ilin **may ayının 15-dən gec** olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**Vergilər may ayında ödənilir, bəyannamə rüblük olaraq iyulun 20-dən gec olmayaraq təqdim edilir**

• **Muzdlu işlə əlaqədar 2017-ci ilin aprel ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi** cari ilin **may ayının 22-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ildə yanvarın 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri isə 2-ci rüb üzrə bəyannaməni iyulun 20-dən gec olmayaraq təqdim edirlər).

• **Xüsusi notariusların 2017-ci ilin aprel ayı üzrə hesabladıqları gəlir vergisi** cari ilin **may ayının 22-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2-ci rüb üzrə bəyannamə iyulun 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı vasitəsi ilə elektron qaydada təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyinizi tövsiyə edirik.**

# Bank sektorunun inkişafına yönəlmiş səmərəli vasitə

Azərbaycanda Maliyyə Bazarlarına Nəzarət Palatasına (MBNP) «körpü banklar» yaratmaq səlahiyyətinin verilməsi nəzərdə tutulur. Milli Məclisdə İnzibati Prosessual və Mülki Prosessual məcəllələrə dəyişikliklərlə bağlı qanun layihələrinin müzakirəsi zamanı MBNP-nin Direktorlar Şurasının sədri Rüfət Aslanlı bu barədə məlumat verib.

İnzibati Prosessual və Mülki Prosessual məcəllələrə dəyişikliklər gələcəkdə «Bank haqqında» Qanuna müvafiq dəyişikliklər etməyə zəmin hazırlamaq üçün təqdim olunub və qanun layihələrində «körpü bank»ların yaradılmasını nəzərdə tutan qətnamə anlayışı əksini tapıb. Məsələn, İnzibati Prosessual Məcəlləyə təklif edilən dəyişikliyə əsasən MBNP-nin bankın qətnaməsi çərçivəsində qəbul etdiyi qərar məhkəmə tərəfindən ləğv oluna bilməz.

Parlamentdə müzakirələr zamanı R.Aslanlı bildirib ki, maliyyə bazarlarına nəzarət orqanı problemi olan, könüllü restrukturizasiya oluna bilməyən bankların problemlərini icbari qaydada həll etməlidir: «Bunun bir neçə yolu var: banka aidiyyəti olan şəxsləri, yəni səhmdarların, bankın idarə edilməsi ilə bağlı qərarlar qəbul etmək səlahiyyətində olan şəxslərin bankdakı depozitlərini icbari qaydada onun səhmlərinə keçirmək, bankın səhmlərinin bir qismini çıxarıb satmaqla bazardan vəsaitlər cəlb etmək, bankın aktiv öhdəliklərinin birlikdə, yaxud ayrı-ayrılıqda çıxarılıb satılması ilə problemləri həll etmək. Yaxud bankın müəyyən kapital kəsiri var, bunu müəyyən sağlam bir banka satmaqla artıq yeni sağlam bir maliyyə təchizatı formalaşdırmaq olar. Yəqin ki, gələcəkdə dünyada maliyyəçilər başqa yollar da tapa biləcəklər. Bizim təklif etdiyimiz qətnamə «körpü bank»ın yaradılmasıdır. «Körpü bank» nədir? Yeni bank yaradılmır, maliyyə bazarlarına nəzarət orqanı müvəqqəti müddətə sadələşdirilmiş qaydada bank yaradır. Bankın sağlam aktiv və öhdəlikləri həmin «körpü bank»a keçirilir. Bu bank müəyyən müddətdən sonra sağlam bank kimi bazara çıxarılıb satılır. Tənzimləyicilərdə potensial bank investorlarının siyahısı olur. Onlar bilirlər ki, hansı ödəmə qabiliyyəti olan qurumlar bank almaq istəyirlər. Məsələn, hazırda MBNP-nin yalnız Azərbaycanda deyil, hətta Gürcüstanda və Rusiyada kimlərin bank almaq istədikləri, eləcə də həmin bankları kimlərə təklif etmək mümkün olduğu barədə məlumatı var. «Körpü bank»ın yaradılması məhz bu məqsədə xidmət edir. Nəzərinizə çatdırım ki, hazırkı qanunvericiliyə əsasən, bankların yaradılması 8-10 ay müddət tələb edir. «Körpü bank»lar isə tənzimləyicinin qərarı ilə yaradılacaq».

Bank mütəxəssisi Yusif Abdullayevin sözlərinə görə, maliyyə institutlarında biznes prosesləri bir-biri ilə sıx əlaqəlidir. Bir sahədə baş verən kiçik bir problem bütün sistemin məhvinə səbəb ola bilir: «Banklar tarixində bu cür misallar kifayət qədərdir. «Körpü bank»ın məqsədi problem yaranan sahənin digər sağlam sahələrə təsir etməsinə macal tapmamış həmin sağlam sahələri izolə etmək, problemin təsirindən qorumaqdır. «Körpü bank»lar tam funksiyalı bank kimi fəaliyyət göstərə bilməz. MBNP açıqlamasında xüsusi olaraq qeyd edir ki, indiki halda müvəqqəti və sadələşdirilmiş bank yaradılır. Müvəqqəti o deməkdir ki, problem yaranmış bankın sağlam hissəsi müəyyən müddətdən sonra başqa bir banka, maliyyə institutuna satılmalıdır. Çünki yenə də, MBNP-nin qeyd etdiyi kimi, bu, sadələşdirilmiş bankdır və böyük ehtimalla tənzimləyici orqanın prudensial normativlərinə cavab verməyəcəkdir. Bu səbəbdən də onun tam funksiyalı bank olması mümkün deyildir».

Y.Abdullayev «körpü bank»ların yaradılmasında əsas neqativ məqam kimi sağlam aktivlər izolyasiya olunandan sonra ana bankın problemlərinin həllinin müəyyən qədər çətinləşməsi olduğunu bildirdi: «Aktivlər azaldığı üçün yaranmış problemlərin həlli ilə bağlı imkanlar da azalır. Amma optimal idarəetmə əsaslarından çıxış edərək problemin «körpü bank» yaradılması ilə həlli daha effektli nəticələr verə bilər. Bu, bir növ qanqrena yarandıqda bütün orqanizmi məhv etməməsi üçün həmin hissənin qurban verilməsinə bənzəyir. Əgər problem yaranıbsa, oradan itkisiz çıxmaq mümkün deyil».

Burada belə bir sual ortaya çıxır: Azərbaycan bank sistemində «körpü bank»ın fəaliyyəti üçün şərait mövcuddurmu? Bank mütəxəssisi qanunvericilikdə hələlik bununla bağlı hər hansı anlayışın olmadığını bildirdi: «Bunun üçün «Banklar haqqında» Qanunda, Mülki Məcəllədə dəyişikliklər edilməli, maliyyə institutları üçün nəzərdə tutulmuş prudensial tələblərdə «körpü bank»lar üçün ayrıca normativlər müəyyənləşdirilməlidir».

**F. İKRAMQIZI**

# Sahibkarların maliyyə vəsaitlərinə çıxışı asanlaşdırılacaq

Kənd Təsərrüfatı Nazirliyində Prezident İlham Əliyevin «Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» sərəncamında nəzərdə tutulan məsələlərin həlli məqsədilə Tədbirlər Planı hazırlanır.

Kənd təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbovun sözlərinə görə, sənəddə aqrar sahə ilə bağlı prioritet istiqamətlər üzrə səmərəli mexanizmlərin yaradılması və icrası əks olunacaq. Qarşıya qoyulan hədəflər ölkənin ərzaq təhlükəsizliyinin dayanıqlılığının gücləndirilməsi, kənd təsərrüfatı məhsullarının istehsal potensialının artırılması, biznes mühitinin təkmilləşdirilməsi və bazar infrastrukturunun inkişaf etdirilməsi, bu sahədə çalışan sahibkarların maliyyəyə çıxışının asanlaşdırılmasından ibarətdir.

Hazırda kənd təsərrüfatında əsas məsələlərdən biri ixtisaslaşmış sahibkarların maliyyə əldə etmək imkanını asanlaşdırmaqdır. İstehsalçıların maliyyə resursları ilə təminatının yaxşılaşdırılması məqsədilə risklərin qiymətləndirilməsi, risk təsirinin yumşaldılması üzrə mexanizmlərin təkmilləşdirilməsi zəruridir. Bu məqsədlərə çatmaq üçün üç prioritet istiqamət seçilib: aqrar sahədə maliyyələşmə mexanizminin təkmilləşdirilməsi, aqrar sığortanın inkişaf etdirilməsi və investisiyaların cəlb olunmasının stimullaşdırılması. Hazırda kənd təsərrüfatına və emal sahəsinə ayrılan kreditlərin illik həcmi təxminən 450 milyon manatdır. Bu, ümumi iqtisadiyyata qoyulmuş kreditlərin cəmi 2,8%-ni təşkil edir. Kapital qoyuluşunun az olmasının əsas səbəblərindən biri kənd təsərrüfatı məhsulları istehsalçıları üçün girov şərtlərinin əlverişsizliyi, bu sahə üzrə kredit risklərinin azaldılmasını təmin edən təkmil mexanizmlərin olmamasıdır. Ona görə də kənd təsərrüfatında çalışan sahibkarların maliyyə resurslarına ehtiyaclarını təmin etmək üçün bank vəsaitlərinin aqrar sektorun kreditləşməsinə yönəldilməsinin stimullaşdırılması, kreditlər üçün girov bazasının genişləndirilməsi, innovativ və girovsuz kreditlərin tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi, kredit zəmanət fondunun yaradılması nəzərdə tutulur.

Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev aqrar sahənin maliyyələşdirilməsində bankların fəal iştirak etməsinin vacibliyini vurğulayıb. O, bankların kənd təsərrüfatı mülkiyyətçilərinin kredit əldə etməsi üçün girov mexanizminin sadələşdirilməsini, bu istiqamətdə yeni hazırlanmış «Daşınar əmlakın yüklülüyü haqqında» qanun layihəsinin qəbulunun müsbət rol oynayacağına imidvar olduğunu xatırladıb. Bank mütəxəssisi, bununla yanaşı, kənd təsərrüfatında çalışan kiçik və orta sahibkarların asan maliyyələşdirilmə imkanlarının təmin edilməsi üçün xarici ölkələrin qabaqcıl bank təcrübəsi və modellərinin öyrənilərək tətbiqini də vacib sayır. Onun sözlərinə görə, kənd təsərrüfatı üzrə xüsusi biznes-kredit yönümlü bank modelinin tətbiqi qeyri-neft sektorunun emal və aqrar bölmələrinin inkişafında mühüm rol oynaya bilər.

**ELBRUS**

beynəlxalq panoram

# Yunanıstanda əmlak vergisi son beş ildə 613% artıb

Ölkədə aparıcı media qurumlarından olan «Ekathimerini»nin yazdığına görə, 2010-cu ildən 2015-ci ilədək ölkədə əmlak sahiblərinin gəlirləri 2,8 milyard avro azalmışdır. Bununla yanaşı, əmlak vergisindən xəzinəyə daxilolmaların illik həcmi 3,18 milyard avroya çatmışdır. 2010-cu ildə Yunanıstanda 1.694.684 vergi ödəyicisinin daşınmaz əmlakdan gəlirləri 8,87 milyard avro məbləğində idi. Aradan beş il keçəndən sonra əmlak sahiblərinin sayında təxminən 200 min azalma olmuş, bəyan edilən gəlirlərin məbləği isə 6,05 milyard avroya düşmüşdür. Bu faktlar bazarda böyük mənzil ehtiyatının olduğunu və daşınmaz əmlakın həm alğı-satqı, həm də kirayə qiymətinin ucuzlaşdığını göstərir.

2010-cu ildən 2015-ci ilədək olan dövr ərzində Yunanıstanda daşınmaz əmlak vergisi də 613% artmışdır. Analitiklərin təxmininə görə, bu vəziyyət 2017-ci ildə də gərgin olaraq qalacaq. Çünki daşınmaz əmlakdan qazanılan 12 min avroyadək məbləğə tətbiq edilən vergi bu il 11%-dən 15%-ə qaldırılmışdır.

# Offşorlara qarşı mübarizənin əhatə dairəsi genişlənir

Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) offşorlar üzərindən vergi yayındırmağın qarşısını almaq məqsədi daşıyan çoxtərəfli sazişə imza atmışdır. OECD-nin Parisdəki mənzil-qərargahında BƏƏ-nin Fransadakı səfiri vergi məsələlərində qarşılıqlı administrativ fəaliyyət barədə saziş imzalamışdır. Beləliklə, bu sazişin tərəfi olan ölkələrin sayı 109-a çatmışdır.

Konvensiya sorğu üzrə informasiya mübadiləsi, məlumatların könüllü və avtomatik mübadiləsi, xaricdə vergi yoxlaması, paralel vergi yoxlaması və vergilərin yığılmasına kömək kimi məsələlər də daxil olmaqla vergidən yayınmaya qarşı bir sıra tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

2010-cu ildə offşor mexanizmləri vasitəsilə vergidən yayınmaya qarşı mübarizənin gücləndirilməsi məqsədilə G-20 ölkələri müqavilədə dəyişiklik etmişdilər. Bu dəyişikliklə müqavilə bütün ölkələr üçün açıq hala gətirilmişdi ki, onlar daha şəffaf şərtlərdən öz faydaları üçün istifadə edə bilsinlər.

# Yaponiyada vergi sənədləşməsi elektronlaşdırılacaq

2019-cu maliyyə ilindən başlayaraq Yaponiyada sahibkarlıq fəaliyyətinin bütün subyektlərində vergi sənədləşməsi elektron formada aparılacaq. Bu təşəbbüs iqtisadiyyatın dövlət və özəl sektorlarında kağızdan istifadənin azaldılmasına dair hökumət proqramı çərçivəsində irəli sürülmüşdür.

Yaponiyanın Maliyyə Nazirliyi və vergi administrasiyası vergi sənədləşməsinin elektron qaydada aparılmasına keçidlə bağlı müfəssəl planı bu ilin iyul ayına qədər hazırlamalıdır ki, onu 2018-ci ilin aprelində vergi islahatının digər maddələri ilə birlikdə qəbul etmək mümkün olsun.

Hazırda Yaponiyada vergi hesabatlarını rəqəmsal formada təqdim etmək imkanı var. Lakin elektron sənədləşməni əsasən lisenziyalı vergi agentlərinin xidmətlərindən istifadə edən kiçik şirkətlər aparırlar, böyük korporasiyalar isə özlərinin vergi uçotu sistemindən istifadə etməyə üstünlük verirlər.

# Büdcə kəsirini aradan qaldırmaq üçün...



İtaliya hökumət dairələrindən bildirilmişdir ki, ölkədə tütün məmulatlarından tutulan vergilər artırılacaq. Avropa İttifaqının tələblərinə əsasən, büdcə çatışmazlığının aradan qaldırılması üçün yollar axtaran hökumət əlavə dəyər vergisinin ödənişindən yayınan vergi ödəyicilərinə qarşı mübarizə tədbirlərinin gücləndiriləcəyini də vəd etmişdir.

Xatırladaq ki, büdcə kəsirinin təcili olaraq 3,4 milyard avro (ÜDM-in 0,2%-i) azaldılması ilə bağlı qərarı Nazirlər Kabineti aprelin 11-də qəbul etmişdi. Lakin hökumət həyata keçiriləcək konkret tədbirlər barədə aradan xeyli keçəndən sonra açıqlama vermişdir, çünki parlamentdə lazım olan vəsaitin haradan əldə olunacağı ətrafında gərgin müzakirələr aparılırdı. Artıq millət vəkilləri iyun ayının sonuna qədər (iki ay müddətində) hökumətin tövsiyələrini təsdiq etməlidirlər.

İtaliyada vergi sistemində islahatlar əlavə dəyər vergisinin ödənilməsini tənzimləyən qaydaların təkmilləşdirilməsini əhatə edir. Bundan sonra ölkənin bütün dövlət orqanları əlavə dəyər vergisini tədarükçüyə deyil, birbaşa dövlətin xəzinəsinə ödəyəcəklər.

Büdcə kəsirinin aradan qaldırılması məqsədilə lotereya və oyun avtomatları uduşlarına tətbiq olunan vergilərin, eləcə də mənzil kirayəsindən tutulan verginin artırılması da planlaşdırılır.

# Alkoqollu içkilərə aksizin tətbiqi təkmilləşdiriləcək

Avropa Komissiyası alkoqollu içkilərin satışı üzrə aksiz vergilərinin yığılması qaydalarının dəyişdirilməsi ilə bağlı mümkün variantlar barədə məsləhətləşmələrə başlamışdır. Xatırladaq ki, Avropa Komissiyasının hazırda qüvvədə olan direktivi alkoqol aksizlərinin tətbiq olunduğu müxtəlif məhsul növlərini müəyyənləşdirir və təsnif edir. Direktivdə rüsumların necə ödənilməsi qaydaları və aksizdən azad olunmuş məhsullar müfəssəl şəkildə təsvir edilmişdir. Bununla yanaşı, həmin sənəd Avropa İttifaqına üzv dövlətlərə alkoqollu içkilərdən tutulan aksizlərlə bağlı güzəştli dərəcələr müəyyən etmək hüququ da verir.

Avropa Komissiyası tərəfindən 2016-cı ilin oktyabrında hazırlanmış məruzədə belə qənaətə gəlinmişdi ki, qüvvədə olan direktiv artıq köhnəlmişdir və administrativ yüklənməni azaltmaq, eləcə də daxili bazarda yaranan uyğunsuzluqları aradan qaldırmaq məqsədilə təkmilləşdirilməsinə ehtiyac var. Məruzə müəllifləri hazırkı qaydaların çatışmazlıqları arasında malların kateqoriyalara ayrılmasında alkoqollu içkilərə tətbiq edilən aksizlərə məqsədəuyğun olmayan güzəştlərin verilməsinə səbəb olan amilləri göstərirlər. Bundan əlavə, Avropa İttifaqına üzv olan bir sıra ölkələrdə pivə üçün aksizin tətbiqində fikir ayrılıqları vardır.

Əlavə edək ki, Avropa Komissiyası alkoqollu içkilər üçün aksizlərin yığılması qaydalarının dəyişdirilməsi haqqında yekun tövsiyələrini iyulun 7-dək hazırlayıb qəbul etməyi planlaşdırır.

# Daşınan yüklər üçün yeni vergi sistemi

Polşa hökuməti yüklərin ölkəyə gətirilməsi və ölkə ərazisindən avtomobil nəqliyyatı ilə daşınması üçün tutulan verginin yığımının təkmilləşdirilməsi məqsədilə yeni sistemin tətbiqinə başlamışdır.

Yeni qəbul edilmiş qanun yüklərin Polşa ərazisində avtomobil nəqliyyatı ilə daşınmasına nəzarətin yeni sistemini nəzərdə tutur və müvafiq vergilərin yığılması üçün boşluqların aradan qaldırılmasını təmin edir. Maliyyə Nazirliyinin yaydığı açıqlamada bildirilir ki, qanuna əsasən, yükü göndərənlərdən və qəbul edənlərdən gömrük xidmətinin onlayn portalında qeydiyyata durmaq və avtomobil nəqliyyatı ilə yerinə yetirilən hər bir daşıma barədə ətraflı məlumat vermək tələb edilir. Bundan əlavə, nəqliyyat şirkətləri də müvafiq məlumatları təqdim etməlidirlər.

Bu sistemin tətbiq olunmasında əsas hədəf vergi və gömrük orqanları üçün maye yanacaq, tütün məmulatları və alkoqollu içkilər kimi vergiyə cəlb olunan malların bütün ölkə ərazisi boyunca izlənilməsini asanlaşdırmaqdır. «Avtomobil daşımalarının nəzarətdə saxlanılması sistemi qanunsuz şəkildə maye yanacaq, emal edilmiş spirt və qurudulmuş tütün alveri ilə qanunsuz məşğul olan fırıldaqçılarla, eləcə də mal və xidmətlərdən vergiləri qanunsuz yolla mənimsəyən şəxslərlə mübarizə alətidir», - nazirliyin açıqlamasında bildirilmişdir.

Hökumətin hesablamalarına əsasən, yeni sistem ölkə büdcəsinə əlavə 330 milyon Polşa zlotası (145,53 milyon manat) vəsait gətirəcək.

## Xəbər lenti

**Malayziya** parlamenti turizm vergisinin qüvvəyə minməsi barədə qərar qəbul etmişdir. Dünya bazarında neftin qiymətinin ucuzlaşması ilə bağlı maliyyə problemləri ilə üzləşən ölkə rəsmiləri turizm vergisinin ölkənin maliyyə vəziyyətini yaxşılaşdıracağı qənaətindədirlər. Hökumətin proqnozlarına əsasən, bu il Malayziyaya 31,8 milyon turistin gəlməsi gözlənilir ki, onlar da ölkədə 26,6 milyard dollardan artıq vəsait xərcləyəcəklər.

**Almaniya**nın «Deutsche Bank»ına böyük məbləğdə cərimə kəsilmişdir. ABŞ-ın Federal Ehtiyatlarının bəyanatında bildirilir ki, xarici valyuta bazarında təhlükəli fəaliyyət, vəsaitlərin offşorlara köçürülməsi banka qarşı 156,6 milyon dollar həcmində maliyyə sanksiyalarının tətbiqinə gətirib çıxarmışdır.

**İordaniya** rəsmi dairələrindən bildirilmişdir ki, vergi bəyannamələrini 2016-cı ilin 30 aprelinə qədər təqdim etməyən vergi ödəyicilərinə 100-500 dinar (240-1200 manat) arasında cərimə tətbiq olunacaq. Hesablanmış verginin ödənilməsini gecikdirənlər isə 4000 dinar məbləğində (9.577 manat) cərimə olunacaqlar.

**Albaniya**da turizm sektorunun təmsilçiləri mehmanxanalardan tutulan ƏDV-nin dərəcəsinin endirilməsini razılıqla qarşılamışlar. BVF-nin əks mövqedə olduğu bu addımın ölkədə turizm sektorunun canlandırılmasına müsbət təsir göstərəcəyi qeyd edilir.

**İtaliya** hökuməti vergilərlə bağlı yeni tədbirlər paketini açıqlamışdır - söhbət əlavə dəyər vergisindən yayınmaya və xərclərin azaldılmasına qarşı mübarizə tədbirlərindən gedir.

**ABŞ-ın Montana** ştatının senatoru bildirmişdir ki, «təhrikedici görkəmlərinə görə» velosipedçilər üçün vergi qoyulmalıdır. Onun irəli sürdüyü qanun layihəsinə əsasən, Montana ştatına kənardan gələn hər bir velosipedçi 25 dollar vergi ödəməlidir.

**Latviya**da bu ildən muzdlu işçilərin vergiyə cəlb olunmayan minimum əməkhaqqı məbləğinin diferensiallaşdırılması sayəsində onların aylıq gəlirlərində azalma müşahidə olunmuşdur.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Polşada şəhər; 2.Neptun planetinin peyki; 3.Gədəbəy rayonunda kənd; 4.Atlantik okeanında ucqar dəniz; 5.Misir ərazisində Nil çayı üzərində tikilən bənd; 6.Masallı rayonunda kənd; 9.«Qəbul olsun», «arzun yerinə yetsin» mənasında, adətən, duaların axırında söylənilir; 13.Orta əsrlər fars ədəbiyyatının, qəzəl janrının ən görkəmli nümayəndələrindən biri; 15.Amerika və Uzaq Şərq ölkələrində çox məşhur olan idman növü; 16.Kiçik Asiyada antik şəhər; 17.Hindistanın məşhur siyasi xadiminin adı; 18.Kanadanın Banf Milli parkında buz gölü; 20.Qədim zamanlardan bu günümüzə qədər istifadə edilən təxmini uzunluq ölçü vahidi; 21.Meyvə şirəsi ilə qənd qarışığından hazırlanan şəffaf kristal şirni növü. **Soldan sağa:** 1.Mədəniyyət əsərlərinin vəhşicəsinə dağıdılması, mədəniyyət düşmənçiliyi; 5.Quran surələrinin müstəqil mənası olan cümlələrindən hər biri; 7.Respublikamızda rayon; 8.Rusiya Federasiyasında çay; 10.Qax rayonunda kənd, alimləri ilə məşhurdur; 11.Qiymətli kağızlarda, kağız pul nişanlarında, sikkələrdə göstərilən dəyər; 12.Suyun süxurları əritməsi, onlarda boşluqların və bunlarla əlaqədar yer səthində və dərinlikdə özünəməxsus relyef formalarının əmələ gəlməsi hadisəsi; 14.Rusiya Federasiyasının Orlov vilayətində çay; 19.Uzaq Şərqdə liman şəhəri; 21.Sinir mənasını verən mürəkkəb sözlərin başlanğıc hissəsi; 22.Nepalda böyük göl; 23.Afrikada dövlət; 24.İyulun 4-də «İstiqlal günü»nü qeyd edən ölkə; 25.Heykəltəraşlıqda işlədilən gildən və ya mumdan hazırlanmış qurumayan plastik kütlə.



*Kanadanın Banf Milli parkında buz gölü*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Driada; 2.Klarnet; 3.Rioni; 4.Takoma; 5.Aktiv; 6.Dəvəçi; 9.Elti *(dağ)*; 13.Çula *(xaqan)*; 15.Ekvador; 16.Akkord; 17.Əzrail; 18.Plenum; 20.Tapir; 21.Stayn *(Gertruda)*. **Soldan sağa:** 1.Dekorator; 5.Aid; 7.İvanovka; 8.Stiv *(Cobs)*; 10.Dendi; 11.Maleviç *(Kazimir)*; 12.İtoçu; 14.Diler; 19.Kataliz; 21.Sevil *(Zeynalova)*; 22.Olpa; 23.Qabardin; 24.Dər; 25.Palindrom.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

# «Bakı Marafonu-2017» uğurla başa çatdı

**Aprelin 30-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə «Bakı Marafonu-2017» keçirilib. Marafonda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva da iştirak ediblər.**

«Küləyə qalib gəl» şüarı altında təşkil olunan marafon Dövlət Bayrağı Meydanından start götürüb və Bakı Olimpiya Stadionunda başa çatıb. Marafonun məsafəsi 21 kilometr təşkil edib. Artıq ikinci ildir təşkil olunan marafon kütləviliyi, daha çox iştirakçını əhatə etməsi ilə fərqlənib. Marafona yaşı 16-dan yuxarı şəxslər əvvəlcədən qeydiyyatdan keçərək qoşulublar. Yarışda iştirak üçün ümumilikdə 13 mindən çox şəxs qeydiyyatdan keçib. Həmçinin dövlət rəsmiləri, ictimai-siyasi xadimlər, tanınmış mədəniyyət və incəsənət adamları, idmançılar, ictimaiyyət nümayəndələri, həmçinin respublikada fəaliyyət göstərən 60-dan çox təşkilat və şirkətin təmsilçiləri də yarışa qoşulublar.

Marafonda Azərbaycan vətəndaşları ilə yanaşı, 1000-dən çox xarici vətəndaş da iştirak edib. Eləcə də İsveçrə, Hindistan, Çex Respublikası, Meksika, Braziliya, Birləşmiş Ərəb Əmirlikləri, Ukrayna və Malayziyanın Azərbaycandakı səfirləri, Koreya, İraq, Belarus, Özbəkistan, Qazaxıstan, Tacikistan və Türkmənistanın ölkəmizdəki səfirliklərinin, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin, Böyük Britaniyanın Azərbaycana Birgə Yardım (UAFA) təşkilatının və «BP Azərbaycan» şirkətinin təmsilçiləri yarışa qoşulub. Marafonda, həmçinin, ABŞ, Böyük Britaniya, Almaniya, Polşa, Türkiyə, Rusiya, İran, Gürcüstan, Ukrayna və digər ölkələrin vətəndaşları da iştirak ediblər.

Budəfəki marafona Azərbaycanın müxtəlif bölgələrinin sakinləri də fəal qoşulub. Sumqayıt, Quba, Goranboy, Kürdəmir və digər şəhər və rayonlardan iştirakçılar, o cümlədən «Regional İnkişaf» İctimai Birliyinin müxtəlif regionları əhatə edən könüllüləri yarışa qatılıb. Marafonun ən yaşlı iştirakçısı, bu vaxtadək müxtəlif ölkələrdə 40-dək marafona qoşulan 78 yaşlı Tarverdi Əliyev olub. Xatırladaq ki, Tarverdi Əliyev «Bakı Marafonu-2016»da da iştirak edib və həmin il də ən yaşlı marafonçu olmuşdu.

Yarışın fan zonası finiş nöqtəsində - Bakı Olimpiya Stadionunda təşkil olunub. Burada iştirakçılar, eləcə də uşaqlar üçün xüsusi proqramlar təqdim edilib. Yarışın finiş xətti və təltifetmə mərasimi də Bakı Olimpiya Stadionunda olub. Marafonda kişilər arasında Türkiyə vətəndaşları Veysi Aslan I, Üzeyir Söyləməz II, rusiyalı Vladislav Demyanov isə III yerə çıxıb. Qadınlar arasında isə finişə Türkiyə vətəndaşı Yayla Kılıc I, ukraynalı Valentina Poltovska II və iranlı Parisa Arab III çatıb.

Xatırladaq ki, marafondan toplanan vəsait Heydər Əliyev Fondunun valideyn himayəsindən məhrum olan uşaqlarla bağlı layihəsinə yönəldiləcək.



# «Tour d'Azerbaidjan-2017» ölkəmizin beynəlxalq arenada təbliği baxımından mühüm rol oynayır



**Mayın 2-də «Tour d'Azerbaidjan-2017» beynəlxalq velosiped turu ilə əlaqədar Respublika Velotrekində mətbuat konfransı keçirilib. Tədbirdə veloturun Təşkilat Komitəsinin sədri, Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov və yarışın texniki direktoru, Avropa Velosipedçilər Birliyinin fəxri baş katibi Roland Hofer iştirak ediblər.**

Veloturun Təşkilat Komitəsinin sədri Sahib Ələkbərov 2.1 kateqoriyalı «Tour d'Azerbaidjan-2017» barədə ətraflı məlumat verərək bildirib ki, yarış gözəl idman tədbiri olmaqla yanaşı, ölkəmizin beynəlxalq arenada təbliği baxımından mühüm rol oynayır. Velosiped idmanı başqa idman növlərindən onunla fərqlənir ki, digər yarışlar əsasən qapalı məkanda keçirildiyi halda, bu yarışlar yüz kilometrlərlə məsafəni əhatə edir və düzənlik, dağlıq ərazilərdən, müxtəlif şəhər, rayon, qəsəbə və kəndlərdən keçməklə təşkil olunur. Təbii ki, bu da ölkənin beynəlxalq səviyyədə tanınması, onun görməli yerlərinin, turistləri maraqlandıran məkanların bütün dünyaya təqdim edilməsi üçün çox vacibdir. Ümummilli lider Heydər Əliyevin 94-cü ildönümünə həsr olunan «Tour d'Azerbaidjan-2017» beynəlxalq velosiped turu Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi və Beynəlxalq Velosipedçilər İttifaqının dəstəyi ilə Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən təşkil olunur. Velotur ölkəmizin qəbul edəcəyi 4-cü İslam Həmrəyliyi Oyunları öncəsi dünya idman ictimaiyyətinin diqqətini bir daha Azərbaycana yönəldəcək.

«Builki yarışda 18 ölkədən 22 komanda mübarizə aparacaq ki, onlardan da 6-sı peşəkar kontinental, «Synergy Baku» da daxil olmaqla 16-sı kontinental kollektivdir. İştirakçılar 1-ci mərhələdə Bakı-Sumqayıt (150 km), 2-ci mərhələdə Bakı-İsmayıllı (187 km), 3-cü mərhələdə Qəbələ-Şəki-Qəbələ (177 km), 4-cü mərhələdə Qəbələ-Ağsu-Pirqulu (164 km) və sonuncu mərhələdə Bakı-Abşeron-Bakı (158 km) marşrutu üzrə, ümumilikdə, 836 kilometr məsafə qət edəcəklər. Əvvəlki illərdən fərqli olaraq bu il turun 4-cü mərhələsinə Ağsu dolaylarının əlavə edilməsi yarışa olan marağı daha da artırıb», - deyə Sahib Ələkbərov əlavə edib.

Azərbaycana hər səfərində bir çox müsbət dəyişikliklərin şahidi olduğunu deyən yarışın texniki direktoru Roland Hofer ölkəmizdə velosiped idmanının günü-gündən inkişaf etməsindən, yeni idman qurğularının tikilməsindən məmnunluğunu bildirib. O qeyd edib ki, Azərbaycanda artıq velosiped idmanının inkişafı üçün gözəl baza yaradılıb, Velopark, BMX stadionu, Dağ Velosipedi parkı, Velotrek istifadəyə verilib. Elə bunun nəticəsidir ki, ölkəmiz 2018-ci ildə velosiped idmanının BMX növü üzrə dünya çempionatına ev sahibliyi edəcək ki, bu da ölkəmizin dünya velosiped aləmində mövqelərinin getdikcə güclənməsinin bariz nümunəsidir.

«Tour d'Azerbaidjan-2017» beynəlxalq velosiped turunun əvvəlki illərdə olduğu kimi, bu dəfə də uğurla keçəcəyinə əmin olduğunu deyən Roland Hofer qonaqların Azərbaycandan ən xoş hisslərlə ayrılacaqlarına şübhə etmədiyini vurğulayıb.

Sonra jurnalistlərin sualları cavablandırılıb.

# Dünya kuboku yarışları yekunlaşıb

Aprelin 30-da Bakıda Beynəlxalq Gimnastika Federasiyasının (FIG) bədii gimnastika üzrə dünya kuboku yarışlarına yekun vurulub. Milli Gimnastika Arenasında keçirilən dünya kubokunun üçüncü - sonuncu günündə fərdi gimnastların halqa, top, gürzlər və lentlə, eləcə də qrup komandalarının 5 halqa, 3 top və 2 iplə hərəkətlər üzrə final yarışları oynanılıb.

Fərdi yarışlarda rusiyalı gimnastlar Aleksandra Soldatova topla, Arina Averina halqa ilə, israilli Viktoriya Vaynberq-Filanovski gürzlərlə, Bolqarıstan gimnastı Neviana Vladinova isə lentlə hərəkətlərdə qızıl medala sahib olublar. Qrup komandalarının yarışında 5 halqa ilə çıxışda İtaliya millisi, 3 top və 2 iplə mübarizədə isə ukraynalı gimnastlar birinci olublar.

Qeyd edək ki, turnirdə 21 ölkədən 94 gimnast mübarizə aparıb. Onlardan 34-ü fərdi proqramda, 58 nəfəri isə, ümumilikdə, 10 qrup hərəkətləri komandasının tərkibində çıxış edib.



# Şəhriyar Məmmədyarov yenə də zirvədə...

Azərbaycanın mərhum qrossmeysteri Vüqar Həşimovun xatirəsinə həsr olunmuş «Shamkir Chess 2017» turnirinə yekun vurulub. Artıq 4-cü dəfə keçirilən yarışın qalibi azərbaycanlı qrossmeyster Şəhriyar Məmmədyarov olub. O, 10 turdan sonra 5.5 xalla bütün rəqiblərini qabaqlayıb.

Turnirin reytinq favoriti, ABŞ təmsilçisi Uesli So, bolqar Veselin Topalov və rusiyalı Vladimir Kramnik 5 xalla 2-ci 4-cü yerləri bölüşüblər. Yarışda iştirak edən digər təmsilçimiz Teymur Rəcəbov isə turniri 4 xalla 8-ci pillədə başa vurub.




# «Vergilər uşaqların gözü ilə»

RƏSM və İNŞA MÜSABİQƏSİ

***Vergilər Nazirliyi 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş «Vergilər uşaqların gözü ilə» rəsm və inşa müsabiqəsini elan edir. Müsabiqə seçmə və yekun mərhələdən ibarət olmaqla iki mərhələdə keçiriləcəkdir. Müsabiqənin qaliblərinə (1-ci, 2-ci və 3-cü yerləri tutanlara) diplom və hədiyyələr təqdim ediləcəkdir.***



Rəsm müsabiqəsində 5-16 yaş, inşa müsabiqəsində isə 9-16 yaş qrupuna aid uşaqlar iştirak edə bilərlər. Müsabiqəyə qoşulmaq üçün rəsmlər və inşalar 2017-ci ilin may ayının 12-dək Vergilər Nazirliyinin rəsmi internet saytında yerləşdirilmiş aşağıdakı ünvana təqdim edilməlidir:
www.taxes.gov.az/modul.php?name=terminal&cat=3
Hər iştirakçı yalnız 1 rəsm və ya 1 inşa təqdim edə bilər. Rəsm və ya inşa təqdim edilərkən müsabiqə iştirakçısının adı, soyadı və atasının adı, yaşı, təmsil olunduğu şəhər (rayon), oxuduğu məktəb və sinif ayrıca qeyd olunmalıdır.

Müsabiqədə fəal iştirak etməyinizi və müvəffəqiyyət qazanmağınızı arzu edirik!

Azərbaycan Respublikası Vergilər Nazirliyi


sağlam həyat tərzi

# Allergiya yoldadır...

Yaz ayları allergiyası olanlar üçün əlverişsiz mövsüm sayılır və xəstəlik daha geniş yayılır. Azərbaycan Tibb Universiteti kliniki immunologiya və allerqologiya kursunun dosenti Aynur Ağayeva mövzuya aydınlıq gətirərək bildirib ki, allergik xəstəliklərdən ən çox yayılanı məişət tozudur. İqlim və fəsildən, evin yerləşməsindən asılı olaraq, məişət tozlarının miqdarı dəyişə bilər. Məişət tozu toplusuna daxil olan məişət tozu gənələri adi halda gözlə görünməyən çox xırda buğumayaqlılardır. Onlar insan dərisindən qopan pulcuqlarla qidalanır. Gənələr əsasən çarpayı, balış, yorğan-döşək və s. yataq dəstlərində yaşayır.



Məişət tozu, yəni gənələrlə mübarizə aparmaq üçün ən yaxşı üsul ətrafdakı allergeni kənarlaşdırmaqdır. Məsələn, evdə içərisində yun, pambıq, quş tükü olan yataq əşyalarını sintetik əşyalarla əvəz etmək, qalın şal və heyvan dərisindən hazırlanan geyimdən uzaq olmaq, döşəmədəki kovroliti linoleumla dəyişmək, ağır pərdələr əvəzinə nazik sintetik, toz yığılmasına imkan verməyən materiallardan istifadə etmək, otaqda toz yığan əşyaları mümkün qədər azaltmaq, həftədə bir dəfə yorğan-döşəyi havaya çıxarmaq, yataq ağlarını, döşək üzlərini tez-tez dəyişmək, tozsoranla onları yaxşı-yaxşı təmizləmək lazımdır. Səliqə-sahman və təmizlik işi apararkən allergiyası olanların yaxında olmaması məsləhətdir. Hazırda xüsusi taxmaları olan kifayət qədər güclü tozsoranlar var ki, onun köməyi ilə yorğan-döşəyi daha yaxşı təmizləmək olur, lakin bununla belə, həmin tozsoranlar da məişət tozu gənələrinin hamısını xaric edə bilmir. Bundan başqa, gənələri məhv edən xüsusi spreylər də var. İl ərzində dörd-beş dəfə mənzildəki yorğan-döşəyi, yumşaq mebeli həmin spreylərlə, sonra isə xalça və döşəklərin səthini tozsoranla təmizləmək lazımdır, çünki ölü gənələr də dirilər kimi eyni allergik reaksiya törədir.

Gənələr üçün əsas qidalardan biri qabıqlanaraq qopan dərinin xırda hissəcikləridir. Xüsusi yataq örtükləri həmin hissəciklərin döşək və balışların içərisinə düşməsinə mane olur və bunun nəticəsində orada yaşayan gənələrin miqdarı azalır. Təkcə yataq otağında deyil, digər otaqlarda da müntəzəm olaraq tozsoran və nəm əski ilə təmizlik işləri aparmaq, mənzildə dibçək bitkiləri saxlamamaq məsləhətdir.

Hipoallergen məişət şəraiti allergiyası olanların sağlamlığının qorunması üçün böyük əhəmiyyətə malikdir. Ona görə də ailədə allergiyası olanlar üçün həmin şəraiti yaratmaqdan ötrü bütün mümkün üsullardan istifadə edilməlidir.